QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 102 (5333) 9 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalqın rifahı Prezidentin prioritet siyasətidir

*İlham Əliyev: "Qısa müddətdə həm ölkə iqtisadiyyatı, həm iş adamları xeyir götürəcəklər"*



Səh 2

**Londonda Y.Bertelsin ilk dəfə ingilis dilinə tərcümə edilən "Böyük Azərbaycan şairi Nizami" kitabının təqdimatı keçirilib**



5

**Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının X konfransı keçirildi**



4

**Əli Həsənov: "Dünyada baş verən mövcud iqtisadi böhranlara baxmayaraq, Azərbaycan sürətlə inkişaf edən ölkələr sırasındadır"**



8

**Siyavuş Novruzov: "Qanun qarşısında bu insanlar cavab verməlidirlər"**



4

**Əbülfəs Qarayev: "Bu il Azərbaycana 956 min turist gəlib"**



9

**3 min güzəştli mənzilin satılması nəzərdə tutulur**



8

12

**Sarkisyanın təxribatları...**



10

**"Son 10 ildə Avropa İttifaqı Azərbaycanda əsas kapitala təqribən 20 mlrd. ABŞ dolları investisiya yatırıb"**




16

**Tanınmış futbolçu, əzmkar məşqçi**



# Xalqın rifahı Prezidentin prioritet siyasətidir

## *İlham Əliyev: "Qısa müddətdə həm ölkə iqtisadiyyatı, həm iş adamları xeyir götürəcəklər"*



***Vətəndaşların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi hər bir dövlətin sosial siyasətinin əsas məqsədlərindəndir. Bu, əhalinin məşğulluğunun, tibbi xidmətlərin yüksək səviyyəsinin, pensiyaçıların, çoxuşaqlı ailələrin və əlillərin hüquqlarının müdafiəsinin təmini yolu ilə həyata keçirilir.***

Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda əhalinin sosial müdafiəsi lazımi səviyyədə təmin edilir, bu məsələlər daim diqqətdə saxlanılır. Azərbaycanda genişmiqyaslı sosial siyasət aparılır. Dövlətimizin başçısı, dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi və yoxsulluğu aradan qaldırmaqdır.

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə ölkəmizin daha da qüdrətlənməsinin, dinamik inkişafının əsas leytmotivini təşkil etməkdədir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Bu isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlət başçısı İlham Əliyevin hər bir addımda vətəndaşların mənafeyini əsas götürdüyünü sübut edir.

### Prezidentin son qərarları əhalinin sosial rifahının güclənməsinə hesablanıb



Azərbaycan Respublikası Prezidentinin "Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" imzaladığı Fərmanına əsasən, ölkəmizdə "güzəştli mənzil" sisteminin yaradılması bir daha dövlət başçısının xalqına olan diqqət və qayğısının bariz nümunəsi olmaqla yanaşı, həm də bu Fərman mənzil probleminin həllində yeni bir mərhələ kimi qiymətləndirilir. Sözügedən məsələ ilə bağlı iqtisadçı-alim Vüqar Bayramov "SƏS" qəzetinə açıqlamasında yeni sistemlə bağlı məlumat verərək, bildirdi ki, artıq sosial evlərin inşa edilməsi ilə bağlı yer Yasamal rayonu ilə razılaşdırılıb və qərar verilib: "Eyni zamanda, digər şəhər və rayonlarda da mərhələli şəkildə mənzillər inşa ediləcək. Mənzillər 1, 2 və 3 otaqlı olacaq. Təbii ki, 3 otaqlı mənzil üçün ödəniş aylıq 300 manatdan az olmasına çalışılır. 2 və 1 otaqlı mənzillər üçün aylıq ödəniş müvafiq olaraq aşağı olacaq və aylıq ödənişin 200 manatdan az olacağı gözlənilir. Sosial evlərin qimətləndirilməsində göstərilir ki, birinci mərhələdə 200 min ailəyə evlərin verilməsi nəzərdə tutulub".

İqtisadçı-alim qeyd edib ki, sosial mənzillərə sahib olacaq vətəndaşlar hər ay üçün 150-200 manat ödəniş edəcəklər: "Daha dəqiq məbləğ xərclər hesablandıqdan sonra bəlli olacaq. Ancaq bütün hallarda, iki otaqlı mənzillərin aylıq ödənişi təxminən 150 manat dəyərində müəyyənləşəcək. Bununla da, vətəndaşlar mənzil problemlərini sosial evlər vasitəsilə həll etmiş olacaqlar".

Ölkə Prezidenti bütün çıxışlarında öz işinə laqeyd yanaşan, vətəndaşların şikayətlərinə etinasız baxan və vəzifə borcunu layiqincə yerinə yetirə bilməyən məmurlara daim xəbərdarlıq edir və barələrində ciddi ölçü götürür. Bu, Prezident İlham Əliyevin dövlət idarəçiliyi sahəsində nə qədər böyük səriştəyə, təşəbbüskarlığa, insanlara qarşı münasibətdə diqqətə və həssaslığa malik lider olduğunu parlaq şəkildə əks etdirir. "Hər bir məmur xalqının xidmətçisi olmalıdır"-deyən Prezident İlham Əliyev hakimiyyəti xalqa layiqli xidmət məramı kimi dəyərləndirir.

Ölkə Prezidenti İlham Əliyev öz çıxışlarının birində demişdir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik."

Beləliklə, yuxarıda göstərilən məqamlar sübut edir ki, ölkə Prezidenti İlham Əliyevin bütün fəaliyyəti və verdiyi son qərarları Azərbaycanda əhalinin sosial rifahının güclənməsinə hesablanıb və xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edilir. Bu isə, ölkəmizdəki sağlam yaşam mühiti, təhlükəsiz həyat şəraiti, birmənalı olaraq, dövlətimizin başçısı İlham Əliyevin apardığı və qarşıya qoyduğu məqsədyönlü siyasətinin nəticəsidir.

***RƏFİQƏ KAMALQIZI***

# Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının X konfransı keçirildi









***Dünən Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının X konfransı keçirildi.***

Konfransda Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, YAP İdarə Heyətinin üzvü Əli Həsənov, YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov, Milli Məclisin deputatları Aqiyə Naxçıvanlı, Hikmət Babaoğlu, Adil Əliyev, Cavanşir Paşazadə, Nərimanov rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev, YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev, rayonun idarə-müəssisə rəhbərləri və konfrans nümayəndələri iştirak edirdilər.

Tədbirdən öncə rayon rəhbərliyi və rəsmi qonaqlar icra hakimiyyətinin inzibati binasının foyesində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə tər gül dəstələri qoyaraq, Ulu Öndərin əziz və parlaq xatirəsini ehtiramla yad etdilər.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə öz işinə başladı.

YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev gündəliyə uyğun olaraq IX konfransdan ötən dövr ərzində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verdi. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışan rayon təşkilatının sədri müstəqil Azərbaycanın inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yola nəzər saldı. T.Tağıyev YAP-ın monolit birliyi, böyük sosial bazası olan bir partiya olduğunu və Azərbaycan xalqının onun ətrafında sıx birləşdiyini vurğuladı.

T.Tağıyev təşkilatın YAP-ın Proqram və Nizamnaməsinə uyğun olaraq, qarşıya qoyulan vəzifələrin icrasını layiqincə yerinə yetirdiyini vurğuladı. Ötən dövr ərzində YAP Nərimanov rayon təşkilatının tərkibinin daha da genişlənərək, üzvlərinin say tərkibinin artımı yönündə müsbət irəliləyişlər əldə edildiyini bildirdi: "Belə ki, Yeni Azərbaycan Partiyasının Nərimanov rayon təşkilatının IX konfransında üzvlərini sayının 19658 nəfər olduğu halda, X konfransa qədərki dövrdə üzvlərin sayı 21340 nəfərə çatmışdır. Hal-hazırda, ilk partiya təşkilatlarının sayı 131-ə çatıb".

Nərimanov rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev YAP-ın Azərbaycanın aparıcı siyasi qüvvəsi oluğunu qeyd edərək, onun yaradılmasını isə tarixi zərurətdən doğmuş, böyük tarixi hadisə kimi dəyərləndirdi. A.Fərzəliyev YAP və onun Böyük Lideri, Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürərək, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycanın təməlini qoyduğunu, olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa bir müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə vicdanlı və əqidəli insanın onun sıralarında birləşməsinin Ulu Öndər Heydər Əliyev fenomeninin və dühasının misilsiz qüdrətindən xəbər verdiyini diqqətə çatdırıb.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, YAP İdarə Heyətinin üzvü Əli Həsənov YAP-ı Ümummilli Lider Heydər Əliyev siyasətinin, Ulu Öndərin layiqli davamçısı Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin bu gün həyata keçirdiyi islahatların gerçəkliyə çevrilməsində, ölkəmizin qüdrətinin artırılmasında yaxından iştirak edən bir partiya kimi səciyyələndirdi: "Çoxminli üzvü olan YAP yeni siyasi fəlsəfəyə, yeni baxışlara əsasən yaranaraq, siyasi meydana qədəm qoydu, tez bir zamanda böyük və nüfuzlu siyasi təşkilata çevrildi. Yeni Azərbaycan Partiyası bütün situasiya və məqamlarda ardıcıl və məqsədyönlü şəkildə dövlətçilik, milli-mənəvi dəyərlərimizə sadiqlik mövqeyində dayanıb, xalqımızın arzularının təcəssümü, yekdil iradəsinin ifadəçisi kimi çıxış edib. Bu gün Ulu Öndərimizin layiqli davamçısı, Möhtərəm Prezidentimiz İlham Əliyev əbədi Liderin tövsiyələrinə sadiq qalaraq, Azərbaycana rəhbərlik etdiyi müddətdə sosial-iqtisadi naliyyətlər, ölkəmizdə hüquqi dövlət, vətəndaş cəmiyyətinin formalaşdırma prosesini sürətləndirməklə yanaşı, milli dövlətçiliyimizdə yeni-yeni ənənələrin əsasını qoydu. Möhtərəm prezidentimizin yürütdüyü daxili və xarici siyasət nəticəsində, Azərbaycan ilbəil güclənir, inkişaf edir və beynəlxalq müstəvidə də öz mövqeyini gücləndirir. Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir".

Əli Həsənov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətinə nəzər salaraq, Azərbaycan mədəniyyətinin, dilinin, tarixinin xarici ölkələrdə təbliğinin və təmsilçiliyinin yeni nümunəsini yaratdığını və bunun çox uğurlu nəticələr verdiyini diqqətə çatdırdı: "Bu gün bizim Birinci vitse-prezidentlik institutunu, məhz Mehriban xanım Əliyeva inkişaf etdirir. Mən əminəm ki, Birinci vitse-prezidentlik institutu Azərbaycan dövlətinin inkişafını təmin edəcək, əsas hədəflərini, sosial, mədəni və digər layihələri uğurla həyata keçirəcək bir qurum olacaq. Mehriban xanım Əliyevanın dinamik xarakteri, Onun xarakterindən gələn konkretlik, humanistlik, Azərbaycan dövlətinə, xalqına bağlılıq hissi əsas verir ki, o, Cənab Prezidentin əsas silahdaşlarının başında dursun və bu silahdaşlar ordusunun səfərbər olunaraq, gələcəyə baxmasına töhfə versin".

Konfransda çıxış edən təşkilatın ağsaqqal üzvü, "91-lər"dən olan Əlişir Musayev, YAP Nərimanov rayon qadınlar şurasının sədri Məhəbbət İbrahimova, təşkilatın gənclər birliyinin sədri Yusif Babanlı partiyanın cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələr reallaşdırmasını, gənclər dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsinin onun tərəfdarlarının sayının artmasına səbəb olduğunu, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycanın dünyanın lider dövlətinə çevrildiyini, xüsusilə vurğuladılar.

Rəsmi çıxışlardan sonra təşkilati məsələlərə baxıldı, rayon təşkilatının 31 nəfərdən ibarət idarə heyəti, 73 nəfərdən ibarət şura üzvü və 9 nəfərdən ibarət nəzarət-təftiş qrupunun üzvləri seçildi. Təmraz Tağıyev yenidən YAP Nərimanov rayon təşkilatının sədri və 6 nəfər isə sədr müavini seçildi.

Konfransda Yeni Azərbaycan Partıyası tərəfindən keçirilən tədbirlərdə yaxından iştirak etdiyinə və Nərimanov rayonunun ictimai-siyasi həyatında göstərdiyi xidmətlərə görə bir qrup partiya fəalı Fəxri Fərman və hədiyyələrlə təltif olundu.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə müraciət oxundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Siyavuş Novruzov: "Qanun qarşısında bu insanlar cavab verməlidirlər"

## *Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*



**** Siyavuş müəllim, Prezident İlham Əliyevin struktur dəyişiklikləri, çevik idarəçilik sahəsində aparılan islahatlarla bağlı nələri söyləyə bilərsiniz?***

* Bu məsələ hələ ötən il Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə əlaqədar keçirilən referendumda öz əksini tapmışdı. Referendumun bir çox maddələri insan hüquq və azadlıqlarını əks etdirsə də orada müəyyən struktur dəyişiklikləri də nəzərdə tutulmuşdu. Ümumxalq səsverməsi yolu ilə bu artıq qəbul olundu və hüquqi təsdiqini tapdı. Bundan sonra dövlətin strukturlarında müxtəlif dəyişikliklər və təkmilləşdirmə işləri aparıldı. Beləcə strukturların daha çox çevikliyi, mövcud iqtisadi, ictimai-siyasi proseslərə cavab verməsi ilə əlaqədar olaraq belə bir strukturlar yarandı və yeni təyinatlar həyata keçirildi. Hesab edirəm ki, bu, ilk mərhələdir. Bu cür digər aidiyyəti strukturlarda da müvafiq islahatlar aparılacaq. Bunun effektivliyi daha çoxdur. Çünki aylar, illər, günlər elə dövr edir ki, burada da çox çevik bir mexanizm tələb olunur. Bu çevik mexanizmin yaradılması üçün də struktur islahatlarına ehtiyac var idi.

**** Azərbaycan həqiqətlərinin dünya ölkələrində təbliği ilə bağlı diplomatik korpuslarımızın gördüyü işlər, Ermənistanın təcavüzkar siyasətinin regionda sülhə təhdidləri barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində hansı işlər görülür?***

* Bu gün Azərbaycan gənc bir dövlətdir və burada diplomatik işlər gedir. Bildiyiniz kimi ara-sıra diplomatik korpusun nümayəndələri Azərbaycanda toplanırdı və ölkəmizdə baş verən hadisələr, qanunvericilik, həyata keçirilən iqtisadi islahatlar, quruculuq-abadlıq işləri, dövlətin siyasəti və digər bu kimi məsələlər bir neçə həftə ərzində səfirlər tərəfindən diqqətə çatdırılırdı. Eləcə də müxtəlif strukturların rəhbərləri ilə görüşlər keçirilirdi və onlarla sual-cavab aparılırdı. Kifayət qədər informasiya əldə olunduqdan sonra bu məlumatların dünya ölkələrinə çatdırılması istiqamətində də işlər görülürdü. Mən bu prosesin davamlı olmasını düşünürəm. Həmçinin diplomatik korpusumuz Azərbaycan həqiqətlərini, ölkədə aparılan abadlıq-quruculuq işlərini, ictimai-siyasi sabitliyi, bütün beynəlxalq tədbirləri haqqında məlumatları geniş şəkildə təmsil olunduğu ölkəyə və yaxud da həmin ölkənin mətbuat orqanlarına çatdırmağa nail olmalıdır. Bu gün Azərbaycan artıq turizmin inkişafı ilə bağlı da xüsusi addımlar atıb. Azərbaycan müharibə aparan bir ölkə, təhlükəli ərazilər hesab olunurdu. Nəticə etibarilə də onu oxuyan, məlumatı olmayan turistlər Azərbaycana gəlməkdən imtina edirdi. Amma artıq bir sıra ölkələrdə bu ənənəyə son qoyuldu. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, müxtəlif forumlar, dünya çempionatları və s. zamanı ölkəmizə gələn həm idmançılar, həm də turistlər gördülər ki, bu gün Azərbaycan dünyanın ən sabit və stabil ölkəsidir. O baxımdan bunu daha da genişləndirərək dünya ictimaiyyətinə çatdrmaq lazımdır ki, onlar da ölkəmizə səfərləri zamanı heç bir maneəyə rast gəlməsinlər. Digər tərəfdən Dağlıq Qarabağ, işğal olunmuş ərazilərimiz, erməni təcavüzü, ermənilərin həyata keçirdikləri terror aktları, Xocalı soyqırımı və s. kimi məsələlər müddətli deyil, daimi xarakter almalıdır ki, daim gündəmdə saxlanılsın.

**** Xaricdən maliyyələşən QHT-lərin erməni lobbisi və bəzi beynəlxalq qurumların Gürcüstan üzərindən ölkəmizə qarşı əsassız ittihamları nə ilə bağlıdır?***

* İlk növbədə qeyd edim ki, biz Milli Məclisdə QHT sektorunun maliyyələşməsi ilə əlaqədar qərar qəbul etmişik. Burada şəffaflığın təmin olunması ilə əlaqədar verilən qrantların mənbəyi, onun hansı məsələlərə xidmət edəcəyi, kim tərəfindən alınması, verilməsi və s. normal bir hal kimi qeydiyyatdan keçməlidir. Beləcə bu haqda aidiyyatı strukturlara məlumat verilməlidir. O zamanlar belə bir qanunda əlavə və dəyişikliklər olunanda bizə qarşı müxtəlif erməni lobbisinin dəstəklədiyi təşkilatlar xeyli hay-küy qaldırdılar. Burada sırf bir məsələ ortaya qoyulurdu ki, şəffaflıq təmin olunsun. Beləcə faktlar da göz qarşısına çıxdı. Məsələn, partiyanın sədr müavini il yarım ərzində Gürcüstana 41 dəfə səfər edib. Eləcə də ayrı-ayrı banklardan müxtəlif valyuta növlərində qrantlar, pullar alıb və bunun da mənbəyi bəlli deyil. Əgər bunlar Azərbaycanda istifadə olunursa mən ölkəmizdə hansısa tədbirin keçirilməsinin şahidi olmamışam. Ona görə də bu qrantlar məqsədli şəkildə verilir. Sözügedən qrantlar məqsədli şəkildə verilirsə həmin şəxslər qarşısında da məsələlər qoyulur. Bizə aydındır ki, Azərbaycan haqqında düzgün olmayan qeyri-obyektiv məlumatlar bunların dili ilə dünya ictimaiyyətinə çatdırılır. Onlar Azərbaycanda ictimai-siyasi sabitliyin pozulması üçün də bu qrantları, pulları ayırırlar. Bu baxımdan da həm hüquq-mühafizə orqanları, həm də ictimaiyyət, cəmiyyət artıq bu insanları tanıyır və onlarla bağlı da hər kəs öz metodlarını tətbiq etməkdədir. Qanunun aliliyi qorunmaq şərtilə qanun qarşısında bu insanlar cavab verməlidirlər.

**** Qətər böhranı, regionda yeni müharibə ocağı yetişirmi? Bunun Azərbaycana təsir imkanları nə dərəcədir?***

* Bu böhranın Azərbaycana təsiri olmayacaq. Qətərlə Azərbaycan arasında çox yaxşı iqtisadi, siyasi əməkdaşlıq münasibətləri var. Amma bütün bunlara baxmayaraq həmin olaylar çox ciddi bir faktordur. Çünki ərəb dünyasında artıq haçalanma ortaya çıxır. Bir tərəfdən terrorizm, ayrı-ayrı dövlətlərin suverenliyinin pozulması, onların ərazilərinə müdaxilə, digər tərəfdən isə müxtəlif bəhanələrlə kifayət qədər təbii sərvətləri olan ölkələrin qarşı-qarşıya qoyulması faktları ortadadır. Təbii ki, burada da o təbii sərbətlərdən güzəştli şərtlərlə istifadə nəzərdə tutulur. Bütün o sıxmalar, təsir mexanizmləri də hamısı ondan qaynaqlanır. Faktlardan biri odur ki, guya bu hansısa terrorist təşkilatının maliyyələşdirilməsi ilə məşğuldur. İndi sual olunur ki, o təşkilatlar haradan yaranıb. Biz onun tərkibinə, təchizatına nəzər salsaq hansı ölkələrin silahları ilə silahlandığının şahidi olarıq. Günün günorta çağı ərəb yarmadasında 60 minlik ordu ortaya çıxıb və digər ölkələrin suverenliyini pozmaqla məşğuldur. Bu heç də elə-belə hal deyil. Bəs niyə o dövlətlər məsuliyyət daşımırlar? Eləcə də müxtəlif ölkələrin daxilində qarşıdurma yaratmağla, etnik separatizmi dirçəltməklə həmin dövlətləri dağıtdılar. Vaxtilə onlar dünyanın ən inkişaf etmiş və aparıcı dövlətləri idi. Buna misal olaraq Liviyanı, İraqı, Misiri, Yəməni və s. göstərə bilərik. Bu gün onlar ayrı-ayrı Avropa ölkələrinə qaçıb miqrant statusu ilə yaşamaq məcburiyyətindədirlər. Onların təbii sərvətləri dəyər-dəyməzinə daşınır. O baxımdan bunlar da müzakirə olunmalıdır və qiymət verilməlidir. Hesab edirəm ki, yanaşma tərzi düzgün olmalıdır. Əgər bir yerdə ədalət pozulacaqsa, digər bir yerdə də bu pozulmalıdır. Bu sırf qütbləşmədir və bunun qarşısı dayandırılmalıdır.

**** ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfəri ilə bağlı nələri söyləyə bilərsiniz. Səfərdən gözləntilər nədir?***

* ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfərindən də heç nə gözləməyə dəyməz. Çünki onların bu səfərləri turistik bir səfərdir. ATƏT öz üzərinə götürdüyü funksiyanı sona kimi yerinə yetirmir. Biz bütün hallarda bu proseslərlə bağlı öz fikirlərimizi demişik. Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Azərbaycanın işğal altında olan Kəlbəcər torpaqlarında Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsinə ATƏT indiyənə kimi də hələ bir münasibət bildirməyib. Bizim vətəndaşlarımızın əziyyət çəkməsinə, onların zorla məhkəmələrə gətirilməsi və onlar haqqında qeyri-qanuni qərar çıxarılmasına göz yumurlar. Çünki qondarma Dağlıq Qarabağ Respublikasında keçirilən məhkəmə Azərbaycan məhkəməsidir. Mən ATƏT-dən başqa bir şey gözləyə bilmərəm.






## Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının IX konfransı keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının IX konfransı keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzüblər. N.Gəncəvi adına Masallı şəhər Mədəniyyət Evində davam edən konfrans Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının konfranslararası müddətdə fəaliyyətini əks etdirən videoçarxın nümayiş ilə başlayıb. Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyevin və həyatdan köçən partiya üzvlərinin xatirələri bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, müstəqil Azərbaycan Respublikasının banisi, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursun ölkə Prezidenti İlham Əliyev tərəfindən qətiyyət və sədaqətlə davam etdirilməsi nəticəsində ölkəmiz ildən-ilə qüdrətlənir və inkişaf edir: "Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatı konfranslararası dövr ərzində öz fəaliyyətini partiyanın Nizamnaməsi və Proqram müddəalarının, Yeni Azərbaycan Partiyasının qurultaylarının qərarlarının, İcra Katibliyinin tapşırıq və tövsiyələrinin rəhbər tutulması əsasında həyata keçirmişdir. Ötən illər ərzində rayon təşkilatı mükəmməl şəkildə təşkilatlanmış, işini günün tələbləri səviyyəsində quraraq, yüksək nəticələr əldə etmiş, ərazi ilk partiya təşkilatların sayını 90-dan 105-ə çatdırmış və partiya üzvlərinin sayının 7634 nəfərdən 11083 nəfərə çatmasına nail olmuşdur. Rayon təşkilatının qeydiyyatında olan 11083 nəfər partiya üzvündən 29,1%-ni, yəni 3221 nəfərini qadınlar, 28,2%-ni, yəni 3126 nəfərini gənclər təşkil edir. Üzvlərin 31,3%-i, yəni 3470 nəfəri ali təhsilli, 19,4%-ni, yəni 2142 nəfəri orta ixtisas təhsillidir. Fəaliyyət sahələrinə görə elm, mədəniyyət və incəsənətdə 316 nəfər, idarəetmə orqanlarında 168 nəfər, səhiyyədə 552 nəfər, təhsildə 2227 nəfər partiya üzvləri çalışır. Eləcə də, üzvlərin 488 nəfəri təqaüdçü, 127 nəfəri isə tələbədir.Ötən dövr ərzində partiya sıralarına 3449 nəfər daxil olmuş və onlardan 37,8%-ni, yəni 1268 nəfərini qadınlar, 47%-ni, yəni 1579 nəfərini gənclər təşkil etmişdir".

Sonra nəzarət-təftiş qrupunun hesabatı dinlənilib. YAP Masallı rayon təşkilatının şura üzvü Qardaş Fətullayev, qadınlar şurasının sədr müavini Əntiqə Tağıyeva və təşkilatın gənclər birliyinin üzvü Sübhan Şiriyev çıxış edərək, təşkilatın fəaliyyəti haqqında fikirlərini bildiriblər. Konfransda Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranma tarixi, o dövrdə baş verən proseslər haqqında geniş məlumat verib: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ilk gündən ölkəmizin müstəqilliyinin qorunması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi, demokratik təsisatların bərqərar olmasında siyasi flaqman rolunu öhdəsinə götürüb. YAP Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvə olaraq xalqımızın ali mənafeyini özünün fəaliyyəti boyu dolğun ifadə etməkdədir. Ölkəmizdə 700 min üzvü olan partiyamızla rəqabət apara biləcək siyasi qüvvə yoxdur".

Konfransda Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Hadı Rəcəbli, Milli Məclis aparatının şöbə müdiri İbrahim Yusifzadə, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək, Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı rolu, keçdiyi inkişaf yolu, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlarda iştirakı barədə geniş söz açıblar.

Konfransda daha sonra təşkilati məsələlər müzakirə edilib, Seyfəddin Abusət oğlu Əliyev yenidən YAP Masallı rayon təşkilatının sədri seçilib. Konfransda yeni tərkibdə rayon təşkilatının şurası, idarə heyəti, eləcə də, nəzarət-təftiş qrupu seçilib.

***Rəfiqə Kamalqızı***

# Londonda Y.Bertelsin ilk dəfə ingilis dilinə tərcümə edilən "Böyük Azərbaycan şairi Nizami" kitabının təqdimatı keçirilib



***İyunun 5-də Londonda XIX əsr Kraliça Viktoriya dövründə təsviri incəsənətin əsaslarını qoyan məşhur rəssam Lord Leytonun (1830-1896) ev muzeyində (www.rbkc.gov.uk/subsites/museums/leightonhouse-museum1.aspx) Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin (www.orinst.ox.ac.uk/research/nizami-ganjavi/home) şərqşünas-alim Yevgeni Bertelsin (1890-1957) "Böyük Azərbaycan şairi Nizami" ("The Great Azerbaijani Poet, Nizami") kitabının ingilis dilinə ilk akademik tərcüməsinin təqdimat mərasimi keçirilib.***

Qərbdə böyük nüfuza malik olan məşhur şərqşünas alim, professor Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabı ilk dəfə 1940-cı ildə rus dilində çapdan çıxıb. Həmin vaxtdan etibarən kitab nəinki ingilis dilində, ümumiyyətlə, təkrar nəşr olunmayıb. Bertelsin bu əsəri Azərbaycan tarixinə, elminə, mədəniyyətinə, irsinə, akademik nüfuzuna, eləcə də milli maraqlarına böyük töhfədir. Kitabda Nizami Gəncəvinin həyat və yaradıcılığı araşdırılır, onun yalnız şair yox, dünya şöhrətli filosof, mütəfəkkir olduğu bildirilir. Kitab bir daha sübut edir ki, Nizami Gəncəvinin əsərləri 900 ildən sonra da aktuallığını itirməyib.



Lakin indiyədək kitabın ingilis dilində tərcüməsi olmadığından əcnəbi alimlər bu əsərdə yer alan məlumatları əldə etməkdən məhrum olublar. Məhz Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bu akademik elmi əsərin dünya elm adamlarının ixtiyarına verilməsi mümkün olub. Kitab üçün illüstrasiyaların orijinalları dünyanın ən qədim kitabxanalarından götürülüb və kitab keyfiyyətli şəkildə Britaniyanın "Gilgamesh" nəşriyyat evində (http://www.gilgamesh-publishing.co.uk/index.html) çap edilib. Şərqşünas-nizamişünas alim, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı Y.E.Bertelsin əsərinin ingilis dilinə edilən akademik tərcüməsi Oksford Universiteti ilə yanaşı, Avropanın aparıcı kitabxanalarına paylanılacaq.

Lord Leytonun rəsm və heykəltəraşlıq əsərləri ilə bəzədilmiş, Birləşmiş Krallıqda XIX əsrin ən möhtəşəm binalarından hesab edilən bu məkanda keçirilən tədbirdə Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin rəhbəri akademik Nərgiz Paşayeva və Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun iranşünaslıq üzrə aparıcı professoru, kitabın redaktoru Edmund Herziq ilə yanaşı, Azərbaycan Respublikasının Baş nazirinin müavini, Xalq Yazıçısı Elçin Əfəndiyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, dilçi alim, Milli Məclisin deputatı Nizami Cəfərov, Oksford Universitetinin İnkişaf Departamentinin rəhbəri xanım Liesl Elder və həmin qurumun rəhbərinin müavini Antoni Qrin, Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin professoru, ərəb dili üzrə mütəxəssis Julia Bray, ABŞ-ın Tulane Universitetinin professoru Elia Brankaforte, Kembric Universitetinin doktoru Razia Sultanova, Oksford Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili müəllimi Julian Faultless, Britaniya Kitabxanasının (British Library) türk kolleksiyaları üzrə rəhbəri Maykl Erdmann, "Gilgamesh" nəşriyyat evinin rəhbəri Maks Skott, Britaniya Parlamentinin Lordlar Palatasının üzvləri, Birləşmiş Krallığın elmi akademik dairələrinin üzvləri, tələbələr, Londonda akkreditə olunmuş diplomatik korpusun və ictimaiyyətin nümayəndələri, ziyalılar iştirak ediblər.

Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun iranşünaslıq üzrə aparıcı professoru, kitabın redaktoru Edmund Herziq tədbirdə iştirak etməkdən məmnunluğunu ifadə edib. O qeyd edib ki, belə gözəl və möhtəşəm məkanda tədbirə qatılmaq hər insana nəsib olmur. "Bütün qonaqlara tədbirdə iştirak etdiyinə görə təşəkkürümü bildirirəm. Bu, çox gözəl bir tədbirdir. Bizi bu gün buraya toplayan əsərin nəşri ilk, lakin sonuncu olmayan bir layihədir. Bu elmi əsərdən sonra nəşr ediləcək kitabların kataloqunu sizə təqdim etmirəm, lakin həmin elmi işlərin əsas amalı, əsas məqsədi haqqında məlumat vermək istəyirəm. Bizim məqsədimiz Azərbaycan və ya rus dilində onilliklərlə çap edilmiş, lakin ingilis auditoriyasına məlum olmayan əsərləri ingilisdilli auditoriyaya tanıtmaqdan ibarətdir. Mərkəzin fəaliyyət dairəsi sırf elmi əsərlərin tərcüməsindən daha genişdir. Mərkəz tədqiqatçı tələbələrə dəstək göstərir. Nizami Elmi Mərkəzi tərəfindən Azərbaycanda maraqlı arxeoloji qazıntılar aparılır, mütəmadi olaraq Britaniyada müxtəlif "dəyirmi masa"lar, elmi konfranslar və digər tədbirlər keçirilir. Ümidvaram ki, gələcəkdə Oksfordda keçiriləcək bu cür tədbirlərdə də sizlər fəal iştirak edəcəksiniz. Lakin bu gün bizi bu salona toplayan əsas məqsəd hazırladığımız bu kitabın təqdimatıdır. Nəyə görə məhz bu kitab bizim ilk nəşr etdiyimiz kitab olub. Nizami Gəncəvinin adını daşıyan və həmin böyük şəxsiyyətə həsr edilmiş kitabın tərcüməsi sözsüz ki, məqsədəuyğun bir seçimdir. Nizami dünyanın ən məşhur və ən tanınmış şairlərindən biridir. Şərq aləmində əsrlər boyu bu ad böyük bir rəmzə çevrilib. Nizami, həmçinin Qərb aləminə də tanış idi. Bu da seçimimizin doğruluğunu təsdiqləyən amillərdən biridir. Digər əsərlərin seçimi də bizim bu məqsədimizə xidmət edəcəkdir. Müəllif Yevgeni Bertels tərəfindən Nizamiyə həsr edilmiş başqa kitablar da var və onların da tərcüməsi məqsədəuyğun olardı. Kitabın nəşr edildiyi 1940-cı ildə, zənnimcə, rusdilli auditoriyada da Nizami haqqında bilən çox az insan olmuşdur. Bertels çox ciddi və dərin tədqiqatçı olduğuna görə, onun çox dəyərli əsərləri olduğu halda, o, elə hesab edirdi ki, Şərq ədəbiyyatı ilə məşğul olan tədqiqatçı üçün bu, çox vacib məsələdir. Bertelsin əsas məqsədlərindən biri Şərqə Günəş kimi doğan dahi şairlərin Qərb aləminə tanıdılması olmuşdur. O, bu məqsədə çatmaq üçün elmi fəaliyyətinin böyük hissəsini dahi şairlər haqqında əsərlərin hazırlanmasına həsr etmişdir ki, bu da həmin şairləri daha geniş auditoriyaya təqdim etmək məqsədini güdürdü. Bu kitabın maraqlı cəhəti odur ki, nəinki Nizami haqqında, kitabda onun zamanı və dövrü haqqında da məlumat verilir. Müəllifin sözlərinə görə, bu əsər çox böyük missiyanın həyata keçirilməsinə nail olub. Eyni zamanda, Nizaminin görkəmli Azərbaycan şairi kimi tanınmasında bu kitabın rolu böyükdür.

Ardı Səh. 6

# Londonda Y.Bertelsin ilk dəfə ingilis dilinə tərcümə edilən “Böyük Azərbaycan şairi Nizami” kitabının təqdimatı keçirilib





Əvvəli Səh. 5

Məhz bu əsərin ərsəyə gəlməsindən sonra Bakıda bir tərəfdən elmi əsərlər, digər tərəfdən çoxlu dərsliklər çap edilməyə başlanıb. Bu isə Nizaminin yenidən dərk edilməsinə, ona lazımi qiymətin verilməsinə səbəb olub. Düşünürəm ki, kitabın başqa bir maraqlı cəhəti var və - bəlkə də Bertels bu haqda heç düşünməyib, - bu, ondan ibarətdir ki, kitabın adı “Böyük Azərbaycan şairi Nizami” sonradan İran alimlərinin arasında bu günə qədər də davam edən bir müzakirəyə, qarşıdurmaya gətirib çıxarıb. Məhz buna görə kitabın ingilisdilli auditoriya üçün hazırlanmasında məqsədlərdən biri də ondan ibarətdir ki, kitabı oxuyanlar buradakı fikirlərin milliyyətçilikdən irəli gəlmədiyini dərk edəcəklər. Bu, çox gözəl, sadə, eyni zamanda, asanlıqla oxunan və böyük şəxsiyyət haqqında dürüst məlumatları geniş auditoriyaya çatdıran bir kitabdır. Mən inanıram ki, bu kitabdan sonra rusdilli auditoriyada olduğu kimi, ingilisdilli auditoriyada da Nizaminin pərəstişkarları artacaqdır. Mənim böyük iftixar hissi ilə yazdığım ön sözdə qeyd edilir ki, kitab yaradılan zaman həmin konsept də nəzərdən qaçmır. Bu kitabın konsepti Qərb oxucuları üçün də əhəmiyyətlidir. Kitabın yarandığı dövr, 1930-cu illərin sonu heç də parlaq dövrlərdən deyildi. Stalinin repressiyalarının pik nöqtəsi olan dövr idi. Azərbaycanda da Mir Cəfər Bağırovun respublikaya rəhbərlik etdiyi həmin dövrdə repressiya qurbanlarının sayı heç də az olmayıb.

Mən bir neçə qısa qeydlə çıxışımı başa vurmaq istəyirəm. Burada sizlərin qarşısında durmaqdan və çıxış etməkdən böyük şərəf hissi duyuram. Bu layihə üzərində çalışanların sayı heç də az deyil. Kitabı rus dilindən tərcümə edən Maroussia Bednarkieviçdir. Fars dilində olan sitatları Ceyms Vayt, kitabın ön sözünün müəllifi mənimlə Elçin müəllimdir. Eyni zamanda, bu kitabı nəşr edən “Gilgamesh” nəşriyyat evinə (http://www.gilgamesh-publishing.co.uk/index.html) təşəkkür etməyi özümə borc bilirəm. Nəhayət, Nizami Gəncəvi Mərkəzinin bütün işlərində olduğu kimi, bu işdə də bizə ən böyük köməyi göstərən akademik Nərgiz xanım Paşayevaya öz dərin təşəkkürümü bildirirəm. Bizim gördüyümüz işlərin heç biri onun dəstəyi və hərtərəfli köməyi olmadan həyata keçə bilməzdi. Əgər tərcümə etdiyimiz kitabın seçimi bizlərə verilsəydi, çox güman ki, biz belə vacib və aktual olan əsər seçməyə də bilərdik. Bir daha Nərgiz xanıma təşəkkür edirəm”, - professor E.Herziq çıxışını tamamladı.

Daha sonra Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri, akademik Nərgiz Paşayeva qonaqları salamlayaraq, onlara tədbirdə iştirak etdiklərinə görə minnətdarlığını bildirərək dedi: “Möhtərəm qonaqlar, əziz dostlar! Dünya mədəniyyəti irsinin parlaq siması şair və mütəfəkkir Şeyx Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş “The Great Azerbaijani poet Nizami” kitabının təqdimat mərasiminə xoş gəlmisiniz!

Kitab 1940-cı ildə görkəmli rus şərqşünas alimi Y.Bertels tərəfindən qələmə alınmış və Bakıda nəşr edilmişdir. O tarixdən bu günə qədər kitab yenidən nəşr edilməmiş və 77 il ərzində heç bir Avropa dilinə tərcümə olunmamışdır.

Bugünkü təqdimat Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Proqramının nəşrə hazırlanan kitablar silsiləsindən ilk elmi kitab, ilk akademik tərcümədir. Belə görünür ki, 77 il çox olsa da, bu qədər gözləməyə dəyərdi.

Nizami haqqında hələ XIII əsrdən etibarən məlumatlar yazılmağa başlanmışdır. XIII əsr müəlliflərindən Məhəmməd Övfi, Zəkəriyyə Qəzvini və başqaları Nizami haqqında yazmış, onun Gəncədən olduğunu qeyd etmişlər. Əmir Xosrov Pəhləvi, Əlişir Nəvai kimi klassiklər də Nizamini özlərinə ustad bilmişlər, irsini yüksək qiymətləndirmişlər. O dövrdən bu günə qədər Nizamişünaslıq inkişaf etmiş və böyük bir elmi sahəyə çevrilmişdir. Bunun nəticəsi olaraq, Nizamişünaslığın Avropa, Yaxın Şərq, Rusiya və Azərbaycan elmi məktəbləri yarana bilmişdi.

Bu gün təqdim olunan kitabın müəllifi Yevgeni Bertels Rus-Peterburq Şərqşünaslıq Məktəbinin görkəmli nümayəndəsidir. Rus Nizamişünaslığının gözəçarpan tarixi, ilk növbədə, Yevgeni Bertelsin adı ilə bağlıdır. Bertels “Böyük Azərbaycan şairi Nizami” əsəri ilə Nizami yaradıcılığının daha geniş - Azərbaycan kontekstini və aspektini bir elmi təlim, yanaşma kimi ortalığa qoydu və təqdim etdi. Məşhur qeyri-azərbaycanlı şərqşünas-alim Y.Bertels şair - Nizami; məkan, tarixi fon - Gəncə; sənətkarlıq məsələləri - farsdilli, azəri üslubi poeziya məfhumlarını bir-birinə sıx bağladı.

Maraqlıdır ki, Oksford Universitetində 1985-2002-ci illərdə farsərəb ədəbiyyatı üzrə çalışmış professor Culiya Skott Meysami 1995-ci ildə “Yeddi gözəl”i ingilis dilinə çevirib çap etdirmişdir. Həmin kitabın ön sözündə ingilis alimi Nizami poeziyasında azəri dilinin ritorik incəliyini və cazibədarlığını özündə əks etdirdiyini və Nizami poeziyasının üslubunu ənənəvi fars Xorasani üslubundan fərqləndiyini qeyd etmişdir. Onun yazdığı fikirlərlə Bertelsin kitabındakı fikirlər arasında bir bağlantı olduğu aydın nəzərə çarpır.

Rus-Peterburq Şərqşünaslıq Məktəbinin Boldırev, Krımski, Bartold, Marr, Levkiyevskaya kimi görkəmli nümayəndələri Nizami yaradıcılığını məhz bu elmi aspektdən təqdim və təbliğ etmişlər.

Azərbaycanda da Nizamişünaslıq aparıcı elmi sahəyə çevrilmiş, dəyərli elmi kitablar və tədqiqatçılar dəstəsi yaranmışdır. Amma əfsuslar olsun ki, bu əsərlərdən bir-iki müəllifi çıxmaq şərti ilə heç biri Avropa dillərinə tərcümə edilməmişdir.

Burada bir məqama da toxunmalıyıq. Bəli, Nizami irsinin Azərbaycan elmi məktəbi XX əsrin 30-cu illərindən sonra öz kulminasiya nöqtəsinə çatdı. Bu səbəbdən Nizami irsinin Azərbaycanda, sovetlərdə öyrənilmə prosesinə yanaşmada bir ideoloji məzmun, bir ideoloji sifariş fərziyyəsi ehtimalı da yarana bildi. Amma Azərbaycan Nizamişünaslığının əksər qiymətli elmi əsərləri və dəyərli müəllifləri - Həmid Araslı, Mikayıl Rəfili, Rüstəm Əliyev, Azadə Rüstəmova, Əliyar Səfərli, Nüşabə Araslı, Məmməd Cəfər, Teymur Kərimli və başqaları sovet dönəmində yaşayıb yaratsalar da, Azərbaycan Nizamişünaslığı hələ sovet dönəmindən əvvəl və sovet dönəmi ilə əsla bağlı olmayan müəlliflərin adı ilə bağlıdır.

Hələ XIX əsrdə Azərbaycan müəllifləri Abbasqulu ağa Bakıxanov, M.F.Axundzadə, daha sonra M.S.Ordubadi, Firudin bəy Köçərli Nizami yaradıcılığına öz əsərlərində toxunmuşlar, bioqrafik məlumatlar vermişlər.

Amma sırada iki ad, iki kitab dəyərli, tutarlı və inkaredilməzdir. Belə ki, 1951-ci ildə görkəmli şəxsiyyət və dövlət xadimi, AXC-nin yaradıcılarından biri, eyni zamanda, alim, publisist, dramaturq M.Ə.Rəsulzadə Ankarada “Azərbaycan şairi Nizami” monoqrafiyasını çap etdirir. Özünün yazdığına görə, bu əsər 1951-ci ildən çox əvvəl hazır idi və onun çapının gecikməsi həyatının çətinlikləri və II Dünya müharibəsinin başlanması səbəbindən oldu. M.Ə.Rəsulzadənin Nizami haqqında qələmə aldığı monoqrafiya Azərbaycan Nizamişünaslığının ən parlaq elmi əsərlərinin ön sırasındadır. Bu əsər heç zaman sovet ideologiyası və ideoloji sifarişlə bağlı ola bilməz.

İkinci kitabın adı “Şeyx Nizami”dir. Kitabın müəllifi XX əsrin əvvəllərinin Gəncə maarifçi-ziyalılar çevrəsinin tanınmış nümayəndəsi, Gəncə Seminariyasının məzunu və sonralar müəllimi Mirzə Məhəmməd Axundzadədir. Kitab 1909-cu ildə Gəncədə Hacı Həsənzadə mətbəəsində Azərbaycan dilində ərəb əlifbası ilə çap edilmişdi.

Bu misallar Azərbaycan Nizamişünaslığının sırf 30-cu illərdən sonra, sovet ideologiyasının, hətta Stalinin mədəni planının bir hissəsi kimi deyil, obyektiv və müstəqil elmi tarixinin olduğunun göstəricisi və sübutudur.

Əlbəttə, Nizamişünaslığın dəyərli hissəsinin böyük qismini fars alimlərinin əsərləri təşkil edir. İranda Vəhid Dəstgerdi, Səid Nəfisi, Əli Əkbər Şəhabi və bir çox başqaları Nizami haqqında dəyərli əsərlər yazmışlar. Xüsusi olaraq qeyd etmək istərdim ki, bu gün təqdim etdiyimiz kitab 1957-ci ildə Tehranda fars dilində “Nizami, şaere-bozorge-Azərbaycan” adı ilə çap edilmişdir. Fars dilinə Hoseyn Məmməd-zadə Sədiq tərəfindən çevrilmişdi. Bu işə görə fars alimlərinə öz təşəkkürümüzü bildiririk. Həmçinin türk alimlərindən Əhməd Ataş, Nihad Banarlı, Əhməd Kabaklı və başqaları da Nizami irsini tədqiq etmişlər.

Avropa şərqşünaslığında Nizami yaradıcılığına maraq əsasən XVIII-XIX əsrlərdən qaynaqlanmağa başlamışdır. 1871-ci ildə macar alimi Vilhelm Baxer Leypsiqdə “Nizami və əsərləri” monoqrafiyasını alman dilində çap etdirir. 1836-cı ildə ingilis alimi Ceyms Atkinson “Leyli və Məcnun” poemasını ingilis dilinə çevirir. Edvard Braun XIX əsrin sonlarında öz əsərlərində “İsgəndərnamə”yə aid fikirlər yazır. Məşhur şərqşünas Hammer “İsgəndərnamə”dən 100-ə qədər beyti alman dilinə tərcümə edir.

Ardı Səh. 7

# Londonda Y.Bertelsin ilk dəfə ingilis dilinə tərcümə edilən "Böyük Azərbaycan şairi Nizami" kitabının təqdimatı keçirilib

Əvvəli Səh. 6

Beləliklə, Nizami milli kimlik və etnik mənsubiyyət çərçivəsini yaran universal fiqur və universal bəşəri dəyərli ədəbiyyatın möhtəşəm nümayəndəsidir. O, öz "Xəmsə"si ilə Şərqin qədim vəhdəti-vücud fəlsəfəsinin, bu gün dəbdə olan multikulturalizm termininin mahiyyətini hələ o dövrdə "Yeddi gözəl"in nümunəsində bədii əksini yaratmış oldu. Onun sənəti və bədii sözü ilahi enerjisinin transformasiyası kimi insanı, məhəbbəti, ədəbiliyi, daxili aləmin kamilliyini bəşəriyyətin əsas qoruyucu çətiri və səddi kimi bədii obrazlarla təqdim və təsvir etdi.

Bizim məqsədimiz Nizaminin, məhz onun dahi yaradıcılığının etik-estetik qayəsinə uyğun olaraq təqdim və təsdiq etməkdir. Şeyx Nizami heç zaman parçalayıcı, ixtilaf yaradan fiqur olmayıb və ola da bilməz. Çünki onun yaradıcılığı insanları və məmləkətləri birləşdirici qüvvəyə malikdir. Nizamiyə görə, müxtəliflik qaçılmaz və obyektivdirsə, deməli, bir araya gəlmək bacarığı və istəyi də, vəhdətə can atmaq arzusu da inkarsız, labüd və mütləqdir.




## "Qoy hamı bilsin ki, mənim şair könlüm iki hərf ilə hər şey yarada bilir!"

Bu kitabın ərsəyə gəlməsində professor Herziqin dediyi kimi, insan əməyi çox əziz və qiymətlidir. Mən öz təşəkkürümü hörmətli professor Herziqə bildirmək istəyirəm. O, məni və kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsi vurğuladı. Buna görə ona təşəkkür edirəm. Amma həqiqət ondan ibarətdir ki, professor Herziqin və Oksford Universitetinin dəstəyi olmasaydı, mən heç nə edə bilməzdim. Mən anlayıram ki, 800 illik tarixə malik universitet özündən kiçik olanlara çox nəvaziş ilə yanaşır. Oksford Universitetinin bütün heyətinə təşəkkür edirəm. Mən bu gözəl məkanda bizim tədbirimizin keçirilməsinə şərait yaradan Lord Leyton Muzeyinin rəhbərliyinə öz təşəkkürümü bildirirəm. Əlbəttə, mən Britaniyanın "Gilgamesh" nəşriyyat evinə və onun rəhbəri Maks Skotta öz təşəkkürümü bildirirəm.

Mən bütün kitabsevərləri alqışlayıb, təşəkkür edirəm. Təşkilati məsələlərdə bizə böyük dəstək olmuş Azərbaycan Respublikasının səfirliyinə öz təşəkkürümü bildirirəm. Kitaba ön sözü yazan Elçin müəllimə, tədbirə gələn qonaqlara - Akif müəllim, Rasim müəllim, Nizami müəllimə öz təşəkkürümü bildirirəm. Burada əyləşən Oksford Universitetinin və Britaniyanın digər aparıcı universitetlərinin alimlərinə, tələbələrə və yüksək qonaqlara öz təşəkkürümü bildirirəm.

Onu da qeyd edim ki, mənim atam Bertelsi şəxsən tanıyırdı, babam yazıçı Mir Cəlal Paşayev Bertelsi evimizdə qonaq etmişdir. Dünyada olan alimlər həmişə dünyada olsunlar, dünyadan köçüb gedənlərin isə ruhu həmişə üstümüzdə, yüksəkdə olsun. Hamınıza bir daha təşəkkür edirəm".

Xalq Yazıçısı Elçin Əfəndiyev çıxışında deyib: "Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin yaranması və artıq 5 ilə yaxın bir dövrdə fəaliyyəti son dərəcə böyük ədəbi, elmi, ictimai, siyasi əhəmiyyətə malik bir hadisədir. Mən onun şahidi idim ki, hörmətli akademikimiz Nərgiz Paşayeva hansı bir həvəs ilə, hansı bir şövq ilə bu Mərkəzin yaradılmasına çalışırdı. Əziz dostlar, mən yenə də fürsətdən istifadə edib həm Oksford Universitetinin müəllim heyətinə, həm də akademik Nərgiz Paşayevaya bu Mərkəzin yaradılmasındakı fəaliyyətlərinə görə təşəkkürümü bildirirəm. Nizami Gəncəvi Azərbaycanın Gəncə şəhərində anadan olub, lakin onun yaradıcılıq diapazonu o qədər geniş idi, onun fikirləri, humanizmi, tolerantlıq və ədalətə çağırış ideyaları o dərəcədə idi ki, o, milli çərçivələrə sığmadı. Akademik Nərgiz Paşayevanın dediyi kimi, bu gün Nizami nə dərəcədə Azərbaycan sənətkarıdırsa, o dərəcədə də böyük ingilis şairidir, böyük bəşəri sənətkardır. Hörmətli professor E.Herziq qeyd etdi ki, bu gün Nizami dünyada məşhurdur. Bu, həm yaradıcılıq baxımından belədir, həm də cismani baxımdan. Nizami adı Azərbaycanda ən geniş yayılmış adlardan biridir. Bu gözəl gecənin rəmzi hadisəsi hesab etdiyim bir məqamı da diqqətinizə çatdırmaq istəyirəm. Buraya gələn bizim böyük filoloqumuzun adı da Nizamidir. Təxminən 900 il bundan əvvəl yazıb yaradan Nizaminin adı da bu gün alimlərimizdə, akademiklərimizdə yaşayır və ona görə də bu hadisəni mən rəmzi hesab edirəm. Əziz dostlar, bir məqama da diqqət çəkmək istərdim. Nizami Gəncəvi Mərkəzi kimi bir Mərkəzin Oksford Universitetində yaranmasının, həmçinin siyasi əhəmiyyət daşıdığını qeyd etmək istəyirəm. Nəyi nəzərdə tuturam? İlk növbədə, bu gün böyük bir bəla bəşəriyyətin başı üzərindən asılıb - bu, terrorizmdir. Bu, elə bir qüvvədir ki, bütün bəşəriyyəti məhv etmək istəyir. Terrorizmin milliyyəti və coğrafi məkanı yoxdur. Təəssüflər olsun ki, terroru bəzən Şərq və İslam dünyası ilə bağlayırlar, bəzən eyniləşdirirlər. Belə hesab edirəm ki, bu gözəl aurada keçən məclis həmin iddialara gözəl bir cavabdır. Şərqin, belə deyək, Nizaminin humanizmi heç vaxt terror yarada bilməz. Çünki terrorçunun dini, milliyyəti, valideynləri yoxdur. Mən bir daha Oksford Universitetinin rəhbərliyinə, akademik Nərgiz Paşayevaya təşəkkür edirəm. Əminəm ki, bu Mərkəz zaman keçdikcə daha müsbət nailiyyətlər əldə edib yeni töhfələr verəcək".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə öz çıxışında vurğulayıb: "Bertelsin kitabının burada təqdimatı, akademikimiz Nərgiz Paşayevanın bir alim, bir istedad sahibi kimi Oksford Universitetində təmsil olunmağı böyük bir qələbədir. Nizami Gəncəvini 850 ildən artıqdır bütün dünyadakı alimlər, şairlər, akademiklər öyrənirlər, təhlil edirlər. Nizami Gəncəvi bu gün Avropaya böyük pəncərə açır. Mən bilirəm ki, bu gün Nərgiz Paşayeva da öz fəaliyyəti ilə I Pyotr kimi Avropaya yeni pəncərə açır. I Pyotr o pəncərəni siyasi məqsədlər üçün açırdı, lakin Nərgiz Paşayeva elmi akademik intellektual pəncərə açır. Mənə elə gəlir ki, bu kitabın ingilis dilinə tərcüməsini Azərbaycan elminin nailiyyəti hesab etmək olar. Çünki bütün dünya bu gün ingilis dilində danışır, ingilis dilində təhsil alır. Nərgiz Paşayeva öz çıxışında Nizami Gəncəvi haqqında hərtərəfli danışdı və mən dahi şairimiz haqqında danışmağı özümə rəva bilmirəm. Amma bir şeyi qeyd etmək istəyirəm ki, Nərgiz Paşayeva bu böyük addımı ataraq özünəməxsus bir uğura imza atmışdır. Nərgiz xanım bu gün Azərbaycan təhsilini yenidən quran, yaradan bir mütəxəssis kimi fəaliyyət göstərir. Mən hər il Nərgiz xanımın rəhbərlik etdiyi universitetin "Məzun günü" tədbirində iştirak edirəm və hər il məndə belə bir təəssürat yaranır ki, Azərbaycan təhsilinin, elminin gələcəyi parlaqdır. Mən əminliklə deyə bilərəm ki, Mərkəz fəaliyyətini uğurla davam etdirəcək və bir müddət sonra Avropanın başqa şəhərlərində Nizami haqqında kitablar nəşr olunacaqdır. Bu yaxınlarda mən italyan alimlərindən təklif almışam. Onlar bizdən razılıq istəyiblər ki, Bertelsin bu kitabını italyan dilinə tərcümə etsinlər. Bir sözlə, demək istəyirəm ki, fəaliyyət davam edir və Nizami yaradıcılığı, onun dahiliyi, azərbaycanlılığı Avropada və dünyada addımlayır".

Daha sonra akademik A.Əlizadə diqqətə çatdırdı ki, Azərbaycan Milli Elmlər Akademiyasında dahi Nizami adına qızıl medal təsis edilib. "İldə bir Azərbaycan aliminə və bir xarici alimə həmin medal təqdim edilir. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti belə qərara gəlib ki, bu il qızıl medala Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin rəhbərləri Nərgiz Paşayeva və professor Robert Hoyland layiq görülsünlər. Qeyd etmək istəyirəm ki, Nərgiz xanımın elmi fəaliyyəti nəzərə alınaraq, bu il may ayının 2-də o, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilib", - deyə akademik A.Əlizadə bildirib. Sonra AMEA-nın prezidenti Akif Əlizadə Nərgiz Paşayevaya akademik diplomunu təqdim edib.

Tədbirdə, həmçinin qonaqlara muğam ustası, xanəndə Fərqanə Qasımovanın ifasında konsert proqramı da təqdim olunub.

Beləliklə, Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin uğurlu layihələrindən biri olan "Böyük Azərbaycan şairi Nizami" kitabının ingilis dilinə akademik tərcüməsinin təqdimat mərasimi yüksək səviyyədə keçdi və böyük marağa səbəb oldu. Qeyd edək ki, 2013-cü ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetində yaradılan bu Mərkəz Birləşmiş Krallıqda Azərbaycanı hərtərəfli, sistemli öyrənən ilk və yeganə elmi-akademik qurumdur. Fəaliyyət göstərdiyi qısa müddət ərzində bu qurum Oksford Universitetinin funksional elmi tərkib hissəsinə çevrilə bilib. Nizami Gəncəvi Elmi Mərkəzi Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsi olaraq, həmin universitetin təkcə Şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə, Oksford Universitetində digər sahələrdə elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətlərinə malikdir.

***Orxan İsmayılov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***London***

# Əli Həsənov: "Dünyada baş verən mövcud iqtisadi böhranlara baxmayaraq, Azərbaycan sürətlə inkişaf edən ölkələr sırasındadır"

***Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov iyunun 8-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə regional nümayəndəliyinin rəhbəri Yohannes van der Klauv və BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelis ilə görüşüb.***



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Azərbaycan hökuməti ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasındakı əlaqələrin yaxşı əsaslar üzərində qurulduğu, bunun bariz nümunəsi kimi Azərbaycanın BMT QAK-ın İcraiyyə Komitəsinin üzvü seçildiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan dövləti ölkədəki qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində böyük işlər görüb.

Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlardan, ölkəmizdəki qaçqın və məcburi köçkün problemlərinin həlli istiqamətində dövlətin həyata keçirdiyi tədbirlərdən danışan Baş nazirin müavini Əli Həsənov Azərbaycanın bütün ölkələrlə, beynəlxalq təşkilatlarla qarşılıqlı, ikitərəfli əməkdaşlığa xüsusi önəm verdiyini deyib. Əli Həsənov diqqətə çatdırıb ki, dünyada baş verən mövcud iqtisadi böhranlara baxmayaraq, Azərbaycan sürətlə inkişaf edən ölkələr sırasındadır.

Əli Həsənov vurğulayıb ki, dövlətimizin başçısının uğurlu xarici siyasəti nəticəsində Azərbaycan hökuməti ilə BMT QAK arasındakı əlaqələr daha da inkişaf edir. O, bunun məcburi köçkünlər öz doğma yurdlarına qayıdandan sonra da davam edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

Görüşdə Yohannes van der Klauv Prezident İlham Əliyevin rəhbərliyi ilə məcburi köçkünlərlə bağlı görülmüş işlərlə tanış olduğunu bildirib və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonu ərazisində məcburi köçkünlər üçün yeni yaşayış kompleksinin təməlinin qoyulmasını və bu insanlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirib.

Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Prezidentin imzaladığı Sərəncamın, məcburi köçkünlərin öz doğma yurdlarına geriyə qayıtmasının böyük tarixi əhəmiyyət kəsb etdiyini deyən qonaq kənd sakinlərinin geriyə qayıdışından sonra BMT QAK-ın bir sıra işlərdə yaxından iştirak etmək istədiyini bildirib.

Əli Həsənov deyib: "Bu gün dünyada bir çox problemlər var. Ancaq bunların içərisində ən həssası qaçqın və məcburi köçkün problemidir. Bu gün 650 milyon nəfər əhalisi olan Avropa 1milyon miqrantın qarşısında çarəsiz qalıb. Bu insanların hər gün hüquqları pozulur. Bir tərəfdən insan hüquqlarının qorunmasından danışırlar, digər tərəfdən isə gündə minlərlə insan həlak olur.

1990-cı illərin əvvəllərində ölkəmizdə 1 milyon qaçqın və məcburi köçkün problemi yarandı. Ulu öndər Heydər Əliyev tərəfindən uğurlu idarəçilik mexanizmi yaradıldı. Bu sahədə indiyədək heç bir konflikt ortaya çıxmadı və bu gün də bu problemin həlli istiqamətində Prezident İlham Əliyev tərəfindən mühüm işlər görülür. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva ilk müşavirəsini məhz məcburi köçkünlərin problemlərinə həsr etdi və bundan dərhal sonra isə məcburi köçkünlər üçün yeni yaşayış kompleksinin təməlini qoydu.

Bu gün ölkəmizə səfər edən nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri Azərbaycan Prezidentinin fəaliyyəti nəticəsində ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətləri bütün dünyaya nümunə göstərirlər".

Ətraflı məlumata görə minnətdarlığını bildirən Yohannes van der Klauv Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsinin vacibliyini qeyd edib və bunun region üçün də mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Əli Həsənov onu da diqqətə çatdırıb ki, işğalçı Ermənistan Avropa Şurasına qəbul olunarkən üzərinə götürdüyü heç bir öhdəliyi yerinə yetirmir. Azərbaycan isə qoşulduğu bütün beynəlxalq konvensiyalara əməl edir. Ancaq buna baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmir. İşğalçı dövlət torpaqlarımızı hələ də işğal altında saxlamaqda davam edir.

Görüşdə, həmçinin 20 iyun Ümumdünya Qaçqınlar Gününün qeyd edilməsi ilə bağlı da müzakirələr aparılıb.

## 3 min güzəştli mənzilin satılması nəzərdə tutulur



"Sosial mənzilə sahib olmaq istəyən vətəndaşlarımızın qeydiyyatdan keçməsinə ehtiyac var". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov deyib. Onun sözlərinə görə, ikinci mərhələdə vətəndaşlar mənzilin yerini yəni, otaqların sayı, həmçinin mərtəbələri seçmək hüququna malik olacaq: "Bir sözlə, birinci mərhələdən fərqli olaraq bu imkan veriləcək ki, sosial mənzil alan şəxs alacağı mənzili seçmək hüququna malik olsun. Rayon qeydiyyatı olan vətəndaşlarımızın müraciəti ilə bağlı hər hansı qadağa yoxdur. Qeydiyyatla bağlı məhdudiyyət olmadığı üçün sosial mənzillərə Bakıda müraciət etməkdə heç bir problem olmayacaq. Digər məqamlardan biri, kredit borcu olanların da sosial mənzillərdən faydalanmaq imkanı olacaq. Vətəndaşlar müraciət etdiyi zaman ailə gəlirlərinin toplanması mümkün olacaq. Yəni, birinci mərhələdə tez müraciət vacib olmasa da, ikinci mərhələdə "ilk müraciət ilk mənzil" prinsipi tətbiq ediləcək. Bu baxımdan, ikinci mərhələdə mənzil almaq istəyən vətəndaşlarımızın daha tez müraciəti olduqca vacibdir. Hər bir vətəndaşın bu hüquqdan bir dəfə faydalanmaq imkanı var. Eyni zamanda, ilk il 2 minə yaxın sosial mənzil təklif edilsə də, sonrakı illər hər il 3 min güzəştli mənzilin satılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, sosial mənzil almaq üçün indi şəxsi kabinet yaradıb, hətta gələcəkdə bu hüquqdan faydalanmaq olar".

*Ruqiyyə Nəcəfzadə*

## Naxçıvanlı gənc alim Rusiyanın Təbiətşünaslıq Akademiyasının professoru seçilib




AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru seçilib. AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsindən SİA-ya verilən məlumata görə, gənc alim bu ada elm sahəsindəki xidmətlərinə, sözügedən müəssisə ilə əlaqələrin inkişafındakı fəaliyyətlərinə görə layiq görülüb.

Qeyd edək ki, Günel Məmmədova100-dən çox elmi məqalənin, 3 kitabın müəllifidir. Onun yerli xammal əsasında alınan "Erionit tipli seolitin alınma üsulu" və "Tomsonit tipli seolitin alınma üsulu" adlı ixtiraları Azərbaycan Respublikası Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin patentinə layiq görülüb. Bundan əlavə, gənc alim ötən il Krasnoyarsk şəhərində fəaliyyət göstərən Elmi-İnnovasiya Mərkəzi tərəfindən elmi tədqiqatların inkişafında roluna görə Fəxri fərmanla təltif olunub. Günel Məmmədovanın bir neçə məqaləsi ABŞ-ın nüfuzlu "Şüşənin fizikası və kimyası" (Glass Physics and Chemistry) jurnalında rus və ingilis dillərində nəşr edilib.

## Rumıniyada SOCAR brendi ilə daha bir yanacaqdoldurma məntəqəsi istifadəyə verilib



SOCAR Rumıniyanın əsas turizm mərkəzlərindən biri olan Braşov şəhərində yanacaqdoldurma məntəqəsi istifadəyə verilib. SOCAR-dan SİA-ya verilən məlumata görə, bununla da bu ölkədə SOCAR brendi ilə fəaliyyət göstərən YDM-lərin sayı 37-ə çatıb. Braşov məntəqəsində quraşdırılmış 3 sayğac 4 kiçik və 2 böyük avtonəqliyyat vasitəsinin eyni zamanda yanacaqla təmin olunmasına imkan yaradır. Burada NANO 95 və NANO 98 (benzin), NANO Dizel və NANO Super Dizel tipli yanacaq məhsullarının satışı həyata keçirilir. YDM-də müştərilər tərəfindən müxtəlif ödənişlərin edilməsi məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb. YDM ərazisində ki kafedə Azərbaycan məhsulları və pulsuz internet xidməti təklif olunur.

Qeyd edək ki, SOCAR Rumıniyanın artıq 18 rayonunda - Botoşan, Suçeava, Nyamts, İaşi, Bihor, Buzau, Bakau, Vrancea, Timiş, İlfov, Kluj, Valcea, Arad, Bistritsa-Nasaud, Sibiu, Argeş, Buxarest və Braşovda yanacaqdoldurma məntəqələrinə malikdir.

# Turizm sənayesinin qeyri-neft sektorunda payı daha da yüksəlməkdədir

## *Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Azər Badamovun yap.org.az-a müsahibəsi*

***- Azər müəllim, ölkəmizdə son dövrlərdə qeyri-neft sektorunun inkişafına göstərilən diqqət və qayğı aqrar sahənin inkişafında da xüsusi əhəmiyyət daşımaqdadır. Bu barədə nə deyə bilərsiniz?***

- Son bir neçə ildə dünyada hökm sürən qlobal maliyyə böhranı, eləcə də neftin qiymətinin kəskin ucuzlaşması qeyri-neft sektorunun inkişafını daha da sürətləndirilməsini olduqca zəruri edirdi. Bu baxımdan son 13 ildə neft gəlirlərindən istifadə etməklə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük nikbinlik doğurur. Sənayedə və kənd təsərrüfatında mövcud olan geniş potensial, ölkənin coğrafi mövqeyi, tranzit-nəqliyyat imkanlarının genişlənməsi qeyri-neft sektorunu, dolayısı ilə kənd təsərrüfatının inkişafı üçün münbit şərait yaradır.

Ötən illərdə ölkədə qeyri-neft sektorunun inkişafının dəstəklənməsi tədbirləri çərçivəsində infrastruktur quruculuğuna böyük diqqət göstərilib. Hazırda Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri sırasında yer alır. Təkcə bu il 150 min hektardan çox torpağı əkin dövriyyəsinə cəlb etmək və burada yüksək məhsuldarlığa nail olmaq məqsədilə suvarma suyu və elektrik enerjisi ilə təminat layihələrinə 250 milyon manatdan çox dövlət vəsaiti yönəldilib. Azərbaycanda iqtisadi sahədə həyata keçirilən bu və ya digər məqsədyönlü tədbirlər nəticəsində qeyri-neft sektoru inkişaf edib, ölkənin ixrac potensialı artıb. Əgər bir vaxtlar ölkə iqtisadiyyatında neft sektorunun çəkisi təxminən 80 faiz civarında idisə, hazırda bu nisbət qeyri-neft sektorunun xeyrinə dəyişib. Prezident İlham Əliyevin vurğuladığı kimi, biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir. O ki qaldı konkret olaraq kənd təsərrüfatının inkişafı məsələsinə, bu ilin aprelində ölkə Prezidentinin Sədrliyi ilə Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının müşavirəsində də səsləndirildiyi kimi, artıq Azərbaycan dünyada öz aqrar məhsulları ilə tanınıb şöhrət tapmaqdadır. İxracın təşviqi üzrə qəbul edilən qərarlara uyğun olaraq, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi, ixrac missiyalarının təşkili və digər tədbirlərin icrası uğurla davam etdirilir. Ən əsası isə pambıqçılıq



və baramaçılığın inkişafı yönündə atılan addımlar təqdirəlayiqdir. Bu gün ölkəmizdə bu sahələrlə məşğul olmaq istəyən sahibkarlara yaxından kömək göstərilir. Əminəm ki, yaxın gələcəkdə kənd təsərrüfatının inkişafı istiqamətində atılan addımlar öz real nəticələrini ortaya qoyacaq və aqrar sahənin qeyri-neft sektorundakı payı daha da artacaq.

***- Ölkəmizdə qeyri-neft sektorunun digər sahələrinin inkişafı istiqamətində də real addımlar atılır, bu yöndə qanunvericilik bazası gücləndirilir. Yeri gəlmişkən, bu yaxınlarda "Turizm haqqında" yeni qanun layihəsi parlamentdə iki oxunuşda qəbul edilib. Turizm mövsümünün başlandığını nəzərə alsaq, bu sahədə hansı irəliləyişləri qeyd edə bilərsiniz?***

- 2004-cü ildən bu yana həyata keçirilən regionların sosial iqtisadi inkişafı Dövlət proqramları bölgələrimizin simasını dəyişib. Bu gün ucqar dağ kəndlərimizdə belə yüksək səviyyəli infrastruktur formalaşdırılıb. Bütün kəndlərin qazlaşdırılması, fasiləsiz elektrik enerjisi ilə təmini, eləcə də kommunikasiya xətlərinin daha da müasirləşdirilməsi yönümündə addımlar atılır. Yəni, regionlarda görülən məqsədyönlü tədbirlər ölkəmizin ümumi daxili məhsulunda turizm sənayesinin payının əsaslı şəkildə artmasını şərtləndirir. Ötən ay Milli Məclisdə "Turizm haqqında" qanun layihəsinin müzakirəsi zamanı da vurğulanmışdı ki, Azərbaycana mart-may aylarında gələn turistlərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 25 faiz artıb. Eləcə də, ötən il səyahət və turizm sənayesinin Azərbaycanın ümumi daxili məhsuluna birbaşa təsiri 2 milyard 285,3 milyon manat olub. Turizm sənayesinin qeyri-neft sektorunda payı daha da yüksəlməkdədir.

Göründüyü kimi, bu kifayət qədər yüksək rəqəmdir və turizm sektorunun inkişafı paytaxtda və regionlarda məşğulluq məsələsində öz müsbət effektini göstərir. Cəlbedicilik baxımından isə paytaxt Bakı ilə yanaşı digər bölgələrimiz də xarici turistlər üçün maraq kəsb edir. Buna görə də hər bölgənin turizm sahəsində potensialı və ənənələri əsas götürülməklə müvafiq infrastruktur qurulmasına diqqət yetirilir. Başqa sözlə desək, ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Bununla yanaşı, bu sektorda xidmət səviyyəsinin get-gedə yüksəlməsi də xarici ölkələrin vətəndaşlarının ölkəmizə marağını artıran amillər sırasındadır.

***-Azər müəllim, digər bir məsələ haqqında da fikirlərinizi bilmək istərdik. Parlament "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" qanun qəbul edib. Ümumiyyətlə, bələdiyyələrin fəaliyyətinin daha da inkişaf etdirmək üçün hansı addımların atılması zəruridir?***

- Ölkəmizin uğurlu iqtisadi-sosial inkişafı, dünyanın siyasi palitrasındakı yeri yeniləşməyə, modernləşməyə stimul verən əsas amillərdəndir. Bu mənada, bələdiyyə institutlarının iş prinsipində, onlarla bağlı qanunvericilikdə də zaman-zaman təkmilləşməyə ehtiyac duyulur. Azərbaycanda bələdiyyələr inkişaf yolundadır. O cümlədən, bələdiyyələr ölkəmizin sosial-iqtisadi inkişafı prosesində yaxından iştirak edirlər. Azərbaycanda bələdiyyələr fəaliyyətə başladığı 1999-cu ildən etibarən regionların sosial-iqtisadi inkişafına öz töhfələrini verməkdədirlər.

Yerli özünüidarəetmə orqanları ötən dövr ərzində böyük təcrübə qazanıblar. Məhz bunun nəticəsidir ki, bələdiyyələrimiz fəaliyyətlərində xeyli uğurlar əldə ediblər. Bu gün çox uğurlu sosial-iqtisadi layihələr həyata keçirən bələdiyyələrimiz var ki, onların bu işi əhali tərəfindən yüksək qarşılanır. Təbii ki, yerli özünüidarəetmə orqanları yerli məsələlərlə məşğul olduqları üçün onların işi insanlar tərəfindən daim diqqətlə izlənilir. Sevindirici haldır ki, bələdiyyələrlə əlaqədar mükəmməl qanunvericilik bazası da yaradılıb. Zərurət yarandıqca, bu sahə ilə bağlı qanunlar təkmilləşdirilir, yeni qanunlar qəbul olunur. Bu baxımdan, "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" yeni qanun da əhəmiyyətlidir. Hesab edirəm ki, belə bir qanunun qəbul edilməsi yerli özünüidarəetmə orqanlarında nizam-intizamı, bütövlükdə iş keyfiyyətini əhəmiyyətli dərəcədə artıracaq. Ümumiyyətlə, hər bir dəyişiklik, hər bir yenilik bələdiyyələrin həyatında müsbət mənada əhəmiyyət kəsb edir. Bələdiyyə qulluqçularının etik davranış qaydaları məsələsi olduqca vacib məqamlardandır ki, müvafiq qanunda bu məsələ öz əksini tapıb. Vurğulayım ki, hər bir bələdiyyə üzvü öz üzərində işləməlidir. Peşəkarlığının, o cümlədən fərdi məsuliyyətinin artırılması, vətəndaşların hüquq və azadlıqlarına hörmətlə yanaşılması, işgüzar nüfuza hörmət kimi nüanslar mütləq şəkildə nəzərə alınmalıdır. Ən əsası isə qarşısındakı şəxslərlə mədəni davranış qaydalarına riayət olunmalıdır. Bu əsas məqamdır. Prezident İlham Əliyev də vurğulayıb ki, bütün məmurlar xalqın yüksək etimadını doğrultmalıdır. O cümlədən də bələdiyyə üzvləri onları seçən insanların problemlərinin həlli ilə məşğul olduqları zaman etik davranış qaydalarına riayət etməlidir.



### Əbülfəs Qarayev: "Bu il Azərbaycana 956 min turist gəlib"

Milli Turizm Təbliğat Bürosunun gəlmə turizm sahəsində ixtisaslaşmış tur operator və turizm şirkətləri ilə görüşü keçirilib. SİA-nın məlumatına görə, görüşdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ötən ilə nisbətən xaricdən gələn turistlərin sayının bu il çox olacağını bildirib: "Azərbaycanda iyun ayının 15-dən sentyabrın 15-ə kimi yay mövsümü nəzərdə tutulub. Ötən ilə nisbətən Azərbaycanda istirahət edən insanların sayı artıb. Bu yay da Azərbaycana Birləşmiş Ərəb Əmirliklərindən daha çox turistin gəlişi gözlənilir". Əbülfəs Qarayev əlavə edib ki, "Formula-1" yarışları zamanı ölkəmizdə böyük mehmanxana şəbəkələrinin 95 faizi dolur: "Artıq sifarişlər verilib. Bundan əlavə olaraq, körfəz ölkələrindən gələn turistlər yalnız paytaxtda yox, regionlarda dincələ bilərlər". Nazir rəqəmləri də açıqlayıb: "Keçən ilin may ayında Azərbaycana 174 min turist gəlibsə, bu il rəqəm 211 min olub. Ümumi 5 ay ərzində keçən il 768 bu il 956 min turist gəlib. Bu 200 mindən çox turist artımı deməkdir. Viza rejiminin sadələşdirilmsi bu artıma xüsusi təsir göstərib".

### Pilləkən rayon sakininin ömrünə son qoydu

Göygöl rayon sakini 1952-ci il təvəllüdlü Cumaxoca Cabbarov yaşadığı evin pilləkənindən yıxılıb. O dərhal Gəncə şəhər Təcili Tibbi yardım Stansiyasına yerləşdirilib. Xəstəxanadan SİA-nın bölgə müxbirinə verilən məlumata görə, onun həyatını xilas etmək mümkün olmayıb. Qeyd edək ki, faktla bağlı araşdırma aparılır.

## Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Daşkəsəndə vətəndaşları qəbul edib



Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq, iyunun 8-də Daşkəsən rayonunda vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbulda Gəncə şəhər, Daşkəsən, Samux, Göygöl və Gədəbəy rayon sakinləri iştirak ediblər. Əvvəlcə Məleykə Abbaszadə ulu öndər Heydər Əliyevin Daşkəsən rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüb. Qəbulda əsasən dövlət qulluğuna və ali təhsilin magistratura səviyyəsinə qəbul, buraxılış imtahanları və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciət edilib. DİM-in səlahiyyətlərinə aid olan bəzi məsələlər yerindəcə həllini tapıb, digər müraciətlər araşdırılması və baxılması üçün qeydiyyata alınıb. Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

# “Son 10 ildə Avropa İttifaqı Azərbaycanda əsas kapitala təqribən 20 mlrd. ABŞ dolları investisiya yatırıb”

## Azərbaycan - Avropa İttifaqı biznes forumu keçirilib

***İyunun 8-də Bakıda 3-cü Azərbaycan-Avropa İttifaqı (Aİ) biznes forumu keçirilib. SİA-nın məlumatına görə, əvvəlki illərdə olduğu kimi, bu biznes foruma da maraq böyük olub. İqtisadiyyat Nazirliyinin, AZPROMO-nun və Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə rəsmi şəxslər, beynəlxalq təşkilatların, səfirliklərin, ticarət palatalarının nümayəndələri, eləcə də Azərbaycandan 300, Avropa İttifaqına daxil olan ölkələrdən isə 100-dən çox iş adamı iştirak edib. Azərbaycanın biznes mühiti, ölkəmizdə həyata keçirilən islahatlar barədə biznes dairələrin məlumatlandırılması, Azərbaycan və Avropa İttifaqı iş adamları arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının geniş müzakirə edildiyi biznes forumda müxtəlif sahələrə - kənd təsərrüfatı və qida, nəqliyyat və logistika, İKT və elektron ticarət, iqtisadi islahatlar, ətraf mühit texnologiyalarına dair panel iclaslar, iş adamları arasında ikitərəfli görüşlər keçirilib, maraqlı çıxışlar edilib.***




İqtisadiyyat naziri, Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının sədri Şahin Mustafayev salamlama çıxışında artıq ənənəvi olaraq keçirilən biznes forumdan keçən müddətdə Azərbaycan-Avropa İttifaqı əlaqələrində, eləcə də Azərbaycanın sosial-iqtisadi həyatında bir sıra mühüm yeniliklərin baş verdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əməkdaşlığın inkişaf etdirilməsi mühüm istiqamətlərdəndir və əlaqələr həm siyasi, həm də iqtisadi, o cümlədən enerji, ticarət, investisiyalar və digər sahələrdə inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti 2017-ci ilin əvvəlində Avropa İttifaqına səfər edib, rəhbər şəxslərlə görüşlər keçirib və müzakirələr aparıb. Avropa İttifaqının bir sıra qurumlarının rəhbər şəxsləri ölkəmizdə səfərdə olublar. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyası fəaliyyət göstərir. Hazırda Strateji Tərəfdaşlıq Sazişi hazırlanır və artıq bununla bağlı Avropa İttifaqı Parlamenti tərəfindən Avropa Komissiyasına mandat verilib, bu istiqamətdə 3 işçi qrupu fəaliyyət göstərir. İqtisadiyyat naziri vurğulayıb ki, Avropa İttifaqı Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. 2016-cı ildə Avropa İttifaqının Azərbaycanın xarici ticarətindəki payı 35%, 2017-ci ilin 4 ayında isə 38% təşkil edib. Son 10 ildə Avropa İttifaqı Azərbaycanda əsas kapitala təqribən 20 mlrd. ABŞ dolları investisiya yatırıb. Azərbaycanda 1300-dən çox Avropa İttifaqı ölkələrinin şirkəti fəaliyyət göstərir. Avropa İttifaqının 23 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 17 üzv ölkə ilə sərmayələrin təşviqi və qorunması sazişləri, 7 üzv ölkə ilə Strateji Tərəfdaşlıq bəyannamələri imzalanıb, 13 üzv ölkə ilə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Avropa İttifaqının bir sıra ölkələri ilə Azərbaycan arasında ticarət palataları mövcuddur. Son 5 ildə Avropa İttifaqına üzv ölkələrlə 123 biznes forum və digər tədbirlər keçirilib. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır, ölkəmiz Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə Avropa İttifaqı ilə əməkdaşlıq edir. Cənub Qaz Dəhlizi layihəsi enerji sahəsində strateji əməkdaşlığımızın gözəl nümunələrindəndir. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan “Şahdəniz 2” üzrə işlərin 93%, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi üzrə 85%, TANAP üzrə 72%, TAP üzrə 42% yerinə yetirilib. Azərbaycan Avropa İttifaqı ilə Tvinninq, TAİEX, SİGMA, Texniki Dəstək, Büdcəyə Dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir və bu alətlər çərçivəsində 1992-ci ildən Azərbaycana 582 mln. avro məbləğində yardım göstərilib.

Nazir Şahin Mustafayev qeyd edib ki, hazırda dünya iqtisadiyyatında gedən neqativ proseslərdən qaynaqlanan xarici mənfi təsirlərinin qarşısının alınması və dayanıqlı inkişafın təmin olunması məqsədilə mövcud çağırışların tələblərinə uyğun iqtisadi islahatlar davam edir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, Stateji Yol Xəritələri və müxtəlif proqramlar qəbul edilib. Azərbaycan iqtisadiyyatı, son zamanlar həyata keçirilən kompleks islahatları diqqətə çatdıran İqtisadiyyat naziri qeyri-neft sektorunun inkişafının, biznes mühitinin yaxşılaşdırılmasının, sahibkarlığın inkişafının, tranzit imkanlarından səmərəli istifadənin, ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsinin, qeyri-neft ixracının artırılmasının, ixracın diversifikasiyasının prioritetliyini vurğulayıb. Bildirilib ki, iqtisadi sahədə aparılan islahatlar çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb, lisenziyaların sayı kəskin azaldılıb, inzibati proseduralar sadələşdirilib, elektron xidmətlər, sahibkarlığın inkişafına dəstək mexanizmləri genişləndirilib və s. Azərbaycanda fəaliyyət göstərən sənaye parklarına indiyədək 800 mln. dollar investisiya qoyulub. İniyədək sahibkarlara 154 investisiya təşviqi sənədi verilib ki, bu layihələr üzrə iqtisadiyyata 1,5 mlrd. manat investisiya qoyuluşuna imkan yaradır. Bu ilin 4 ayında ölkədən keçmiş tranzit yüklərin həcmi 23% artıb. Qeyri-neft ixracının genişləndirilməsi prioritet istiqamətlərdəndir və artıq Azərbaycanın Rusiya, Çin və BƏƏ-yə ticarət nümayəndələri təyin olunub. Avropa İttifaqı ölkələrinə də Azərbaycanın ticarət nümayəndələrinin təyin olunması nəzərdə tutulur. Şahin Mustafayev qeyd edib ki, həyata keçirilən iqtisadi islahatlar artıq real nəticələrini verir. Belə ki, 2017-ci ilin 4 ayında qeyri-neft sənayesi 2,8%, kənd təsərrüfatı 3,2%, ticarət dövriyyəsi 11,5%, ixrac təqribən 41%, qeyri-neft ixracı isə 23% artıb. Bu dövrdə valyuta ehtiyatları 1,3 mlrd. ABŞ dollar artıb və 39 mlrd. ABŞ dolları təşkil edir. 1 aprel 2017-ci il tarixinə valyuta ehtiyatları xarici borcdan 3,2 dəfə çoxdur. Azərbaycan “Qlobal Rəqabətlilik Hesabatı”nda (2016-2017) 138 ölkə arasında 37-ci, MDB ölkələri arasında isə bir neçə ildir ki, 1-ci yerdədir. İqtisadiyyat naziri vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqaməti insan kapitalının inkişafıdır və görülən bütün işlər Azərbaycan vətəndaşına xidmət edir. Diqqətə çatdırılıb ki, Azərbaycandakı siyasi sabitlik, zəngin təbii ehtiyatlar və iqtisadi potensial, yaradılmış əlverişli biznes və investisiya mühiti, müasir infrastruktur, əlverişli coğrafi mövqe, zəngin mədəniyyətimiz, ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş olması Azərbaycanı investisiya qoyuluşu üçün cəlbedici məkana çevirib. Avropa İttifaqı ölkələri ilə əməkdaşlığa gəlincə, nazir Şahin Mustafayev bildirib ki, Avropa İttifaqı ölkələri sənaye parklarına investisiya qoya bilər və bunun üçün sənaye parklarında əlverişli şərait yaradılıb. Bundan başqa, sənaye, kənd təsərrüfatı, İKT, turizm, təhsil, səhiyyə sahələrində Avropa İttifaqı ilə əməkdaşlıq imkanları genişdir.

Avropa Komissiyasının qonşuluq siyasəti və Avropa İttifaqının genişləndirilməsi ilə bağlı danışıqlar üzrə Baş Direktorluğunun Şərq Tərəfdaşlığı departamentinin direktoru Lourens Meredit, Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Malena Mard, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı çıxışlarında Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikirlərini bildiriblər. Sonra Azərbaycan-Avropa İttifaqı biznes forumu “Azərbaycanda iqtisadi islahatlar”, “Kənd təsərrüfatı və qida”, “Ətraf mühit texnologiyaları”, “Nəqliyyat və logistika”, “İKT və elektron ticarət” mövzularında panel iclasları ilə davam etdirilib.



## Azərbaycanın bu günü və gələcəyisən, cənab Prezident İlham Əliyev!

Dəyişdi dünyada türklərə baxış,
Elmin, cürətinlə, İlham Əliyev.
Gətirdin nitqinə böyük mənalar,
Dərin hikmətinlə, İlham Əliyev.

Xoş günlər gətirir açan sabahlar,
Gedib sinələrdən amanlar, ahlar,
Verir bəhrəsini sənə pənahlar,
Xalqa xidmətinlə, İlham Əliyev.

Tarix kitabına yazdın adını,
Bəxş etdin millətə xoş gün dadını,
Qazandın türklərin etimadını,
Qayğı-diqqətinlə, İlham Əliyev.

Gül təki açılır arzu-diləklər,
Şirin duyğularla vurur ürəklər,
Qırılmaz sipərdi polad biləklər,
Ağır zəhmətinlə, İlham Əliyev.

Zəfərlər gözləyir Dağlıq Qarabağ,
Aprel döyüşləri uğurlu sınaq,
Parlaq qələbədən alınar soraq,
Yurda vəhdətinlə, İlham Əliyev.

Arzunun bir yanı Turana bağlı,
İlk sözün, söhbətin Qurana bağlı,
Silinir günbəgün hər acı-ağrı,
Vətən mürvətinlə, İlham Əliyev.

Xoş günlər yanaşır sabaha doğru,
Sığmır sinələrə millətin bağrı,
Atdığı addımlar zəfər soraqlı,
Cəsur qeyrətinlə, İlham Əliyev.

Ali Baş Komandan, gələr xoş soraq,
Ucalar Şuşada üçrəngli bayraq,
Mütləq azad olar Dağlıq Qarabağ,
Ərən cürətinlə, İlham Əliyev.

Xalqın arzusudur parlaq gələcək,
Vətənin çiçəyi üzə güləcək,
Türkün qüdrətini dünya biləcək,
Təmiz niyyətinlə, İlham Əliyev.

Düşmənin ürəyi yanır, od alır,
Türkün birliyindən Turan şad olur.
Ölkəm şöhrətlənir, ölkəm ad alır,
Şanın-şöhrətinlə, İlham Əliyev.

Elin yüksəlişi silinməz naxış,
Xalqın ürəyindən ucalır alqış,
Yaranıb sabaha inamlı baxış,
Gözəl xislətinlə, İlham Əliyev.

Möhtəşəm tərəqqi, canlı inkişaf,
Duyan insanların ürəkləri saf,
Milyon ürəklərə dolubdu insaf,
Xalqa hörmətinlə, İlham Əliyev.

Müstəqil dövləti qorumaq çətin,
Bunu bacarırsan, amalın mətin,
Artır günü-gündən yurda xidmətin,
İşin-söhbətinlə, İlham Əliyev.

Ot kökü üstündə bitib, yaxşıdır,
Bulud səmalardan ötüb, yaxşıdır,
Şər-böhtan aradan itib, yaxşıdır,
Mehrin, diqqətinlə, İlham Əliyev.

***Bəydadaş Cəfərli***

# Yeni erməni hökuməti:
## siyasi spekulyasiyalar və ziddiyyətlər

***Ermənistanda parlament seçkisində respublikaçıların qalib gəlməsindən sonra meydana yeni problemlər çıxıb. Daşnakların başçılıq etdiyi parlament bloku ilə S.Sarkisyanın Respublika partiyası koalisiya yaratmalıdır. Həm parlamentdə yerlər konkretləşməli, həm də hökumət formalaşdırılmalıdır. Ekspertlər bu yolda İrəvan Ağsaqqallar Şurasına olan seçkinin əhəmiyyətli rol oynayacağını proqnozlaşdırırdılar. Həmin seçki olub və yenə də respublikaçılar qalib gəliblər. Deməli, yeni hökumətin formalaşdırılması ziddiyyətlərdən yaxa qurtara bilməyib. Burada digər faktorlarla yanaşı, siyasi-ideoloji məqam da ciddi rol oynayır. Çünki daşnakların siyasi mövqeləri kifayət qədər radikaldır. Onların XXI əsrin tələblərinə cavab verməyən ideoloji konsepsiyaları vardır. Bu səbəbdən hökumətdə yer almaları bütövlükdə problemlər meydana çıxara bilər. Onları önləmək üçün baş nazir Karen Karapetyan konkret addımlar atmalıdır. Lakin o da müstəqil kadr deyil - kənardan sifarişlə bu vəzifəyə gətirilib. Bu da onu göstərir ki, Ermənistanda hökumətin formalaşdırılması mürəkkəb bir prosesə çevrilib. Bunun hansı nəticələr verə biləcəyi maraqlıdır.***



### Saxta seçki: **AŞ PA niyə həqiqəti gizlədib?**

Ermənistanda hökumət böhranı davam edir. Parlament seçkisində Serj Sarkisyanın partiyası qalib gəldikdən sonra, onunla birlikdə "Daşnaksütyun"un yeni hökuməti təşkil edəcəyi haqqında proqnozlar verilirdi. Ekspertlər bu məsələnin asan həll olunmayacağından bəhs edirdilər. Məsələ ondan ibarətdir ki, Ermənistan kənardan tam asılıdır və hökuməti quranda bu məqam öz təsirini göstərir. İndiki halda ekspertlər Ermənistan iqtisadiyyatının çox çətin vəziyyətdə olduğunu əsas götürərək, sağlam hökumət qurmağın mümkünsüzlüyünü qeyd edirlər.

Məsələ ona görə ciddidir ki, Ermənistanda iqtidarla yanaşı, cəmiyyət də korrupsiyalaşıb. Bunu parlament seçkisində aydın görmək mümkün idi. Seçki kifayət qədər qanun pozuntusu ilə müşayiət olunub. "Aravot" qəzeti yazır ki, Avropa Şurası Parlament Assambleyasından (AŞ PA) olan müşahidə missiyası seçkidəki pozuntular haqqında əvvəlcə məlumat yaymışdı. Sonra, nədənsə, bu məqamlar məruzədən çıxarılıb. İtaliyalı deputat Adel Qambaro bununla bağlı deyib: "Biz çoxlu sayda qanun pozuntularının şahidi olduq. Bu, xüsusilə başqa ölkələrlə müqayisədə çox idi" (bax: Pressa: Ambiüii "Daşnaküütön" vırasli, odnako u premğer-ministra Armenii druqie planı / "Verelq.am", 28 aprel 2017).

Xanım A.Qambaro təəccüb edib ki, AŞ PA bu faktları nəyə görə gizlədib. Əslində, səbəb məlumdur. AŞ PA növbəti dəfə ikili standartlar mövqeyini nümayiş etdirib. İllərdir Ermənistanda demokratiya və insan haqlarının olduğundan dəm vuran bir qurum öz qeyri-obyektiv mövqeyini açıq göstərmək cəsarətinə malik deyil. Başqa tərəfdən, Ermənistanın aciz durumda olduğunu dünyadan gizlətməyə çalışan bəzi xristian dairələr, təcavüzkar və demokratiyadan çox uzaq bir qondarma ölkəni layiq olmadığı pozitiv obrazda təqdim etməkdə davam edirlər.

Bununla AŞ PA iki böyük səhv buraxıb. Birincisi, Cənubi Qafqaz ölkələrinə qarşı ikili standartlar siyasəti yeritməklə əhalinin ona olan inamını sıfıra endirib. İkincisi, Ermənistanda real olaraq demokratiyanın təntənəsi işinə ciddi zərbə vurub. Çünki hətta erməni ekspertlər vurğulayırlar ki, seçkidə nəinki hakimiyyət dairələrinin, hətta cəmiyyətin dərin korrupsiya xəstəliyinə tutulduğu aydın olub. Müxtəlif yerlərdə seçicilər siyasi mövqeyə deyil, qrup maraqlarına, bölgə təəssübkeşliyinə, korporativ maraqlara görə səs veriblər.

Eyni zamanda, əksər seçki dairələrində zor tətbiq olunub. Hakim partiyanın nümayəndələri heç bir məntiqi fikir bildirmədən adamları onlara səs verməyə məcbur ediblər. Bir sıra hallarda isə hazır bülletenlər qutulara atılıb. Bütün bunlar müşahidəçilər tərəfindən qeyd olunub və KİV-ə bildirilib. Ancaq yenə də son məruzə "demokratik" məzmun kəsb edib.

Lakin indi bütün bu saxtakarlıqların əziyyətini sadə ermənilər çəkirlər. Çünki saxtalıqla seçilən adamlardan yeni hökumət formalaşdırılmalıdır. Real olaraq Respublika partiyası və "Daşnaksütyun" qalib gəlməyiblərsə, onların təmsilçilərindən formalaşdırılan hökumət xalqın iradəsini ifadə edə bilməz.

Mayın 14-də İrəvanın Ağsaqqallar Şurasına keçirilən seçkilər bu fikirləri təsdiq edib. Orada respublikaçılar 71 faiz səs toplayaraq, üstünlüklərini saxlayıblar. İndi parlamentdə vəzifələr bölüşməli, daşnaklara nə qədər nazir portfelinin verilməsi də müəyyənləşməlidir. S.Sarkisyan bu məsələ ilə bağlı daşnakları təmsil edən nümayəndələrlə müzakirələr aparır. Ermənistan mediasının bununla bağlı yaydığı informasiyalarda vəziyyətin mürəkkəb olduğu xüsusi vurğulanır.

### Siyasi radikalizm: **Ermənistanın ənənəvi bəlası**

Burada əsas maneə daşnakların daha çox nazir yeri almaq tələbi ilə bağlıdır. Baş nazir Karen Karapetyan isə başqa cür düşünür. Bu barədə yazan "Aykakan jamanak" qəzeti tərəflərin yalnız mayın 18-dən sonra konkret qərar verə biləcəyini ayrıca qeyd edir. Belə ki, daşnaklar həm nazir yerlərini artırmaq, həm də yerlərdə onların adamlarının rəhbərlik etməsinə nail olmaq fikrindədirlər.

Bunun hansı nəticələr verə biləcəyini K.Karapetyan yaxşı bilir. Onu ehtiyatlandıran məqam Avropada ultramillətçilərin getdikcə daha çox siyasi dividend qazanmaları ilə bağlıdır. Qərb ölkələrində gedən siyasi proseslər və keçirilən seçkilər erməni ultramillətçiliyinin zehniyyətinə uyğun görüşlərə malik siyasətçilərin fəallaşdığını təsdiq edir. Bu, "Daşnaksütyun"a stimul verir. Yerli icra orqanlarında adamlarını yerləşdirməklə daşnaklar gələcəkdə daha çox uğur qazanmaq və hətta parlamenti tamamilə ələ keçirmək arzusunda olduqlarını dolayısı ilə ortaya qoyurlar. Yəni Ermənistanda siyasi radikalizm rəsmi olaraq qələbə qazanmaq şansı əldə edib.

Bu məqamda bir incəliyi vurğulamaq lazımdır. Əslində, Ermənistanda siyasi qüvvələrin böyük əksəriyyəti radikal millətçilik xəstəliyinə tutulublar. Onların demokratiyadan qətiyyən anlayışı yoxdur. Yalnız Levon Ter-Petrosyanın qismən demokratik düşüncələri vardı, onu da hakimiyyətdən kənarlaşdırıblar və bir daha ora buraxmaq fikirləri yoxdur. Bunların fonunda daşnaklar daha əcaib görünürlər. Onlar bütün qonşu ölkələrə qarşı ərazi iddiasındadırlar, son dərəcə aqressiv və kor siyasi kursa malikdirlər. XXI əsrdə daşnak siyasəti bütövlükdə insanlığa bir ləkədir.

Karen Karapetyanın məqsədi isə sivilizasiya və mədəniyyətlə bağlı deyil. O, vəzifəsini itirməkdən qorxur. Daha doğrusu, K.Karapetyanı Ermənistana baş nazir göndərən qüvvələr müəyyən şeylər tələb edirlər. Hələlik isə baş nazir kimi Karapetyan heç bir ciddi iş görməyib. Məsələn, 2017-ci ilin ilk rübündə Ermənistanın idxalı ixracatdan iki dəfə çox olub.

Hökumətdə sözdə islahatlar aparılsa da, idarəetmədə yeni heç bir real faktor yoxdur. Bütövlükdə hökumətin sistemli islahatlar planı mövcud deyil. Onun olacağına da ümid etmirlər. Çünki Ermənistan hökuməti kənardan olan diqtə ilə işləyirsə, hansısa düşünülmüş kurs yeridə bilməz. Bu, mümkün deyil.

Deməli, qalır vəzifəni əldə saxlamaq və ondan maksimum dərəcədə öz marağı üçün istifadə etməyə çalışmaq. Hazırda Ermənistanda məhz bu istiqamətdə proses gedir. Yüksək vəzifəli şəxslər gəlirlərini artırmaq üçün müxtəlif cinayətlərə əl atmaqda davam edirlər. Hərbi sferada da ciddi problemlər qalmaqdadır. Məsələn, son günlər bir neçə erməni əsgərinin həlak olmasında bəzi zabitləri günahlandırırlar.

Və müdafiə naziri orduda kadr dəyişikliyi edəcəyinin anonsunu verib. İqtisadiyyat, maliyyə, informasiya və digər sahələrdə də eyni acınacaqlı vəziyyət hökm sürür. Ermənistan iqtidarı konkret real addımlar atmaq qabiliyyətini itirmiş kimi görünür. Bu kontekstdə ekspertlər S.Sarkisyanın Çinə deyil, Qətərə səfər etməsinin məntiqini dərk edə bilmədiklərini yazırlar. Görünür, rəsmi İrəvan "Yeni İpək Yolu" layihəsində ciddi iştirak edə biləcəyini gözləmir. Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlamaqla, Ermənistan öz yoluna böyük əngəllər çıxarıb və bu, zəbt etdiyi torpaqlardan çəkilib gedənə qədər davam edəcək.

Bütün bunlar Ermənistanda yeni hökumətin müəyyən siyasi spekulyasiyalar əsasında qurulacağını göstərir. Daşnakların başçılıq etdiyi blokun daha çox nazir postu aldığı halda koalisiyanın intriqa ocağı olacağı şübhəsizdir. Bu baş verməsə belə, hazırkı siyasi, sosial və iqtisadi şərtlər daxilində Ermənistanda yeni işlək hökumətin formalaşdırılması şansı minimumdur. Deməli, ölkədə iqtisadi tənəzzül davam edəcək. İnsanların həyat səviyyəsi aşağı olaraq qalacaq. İmkan tapanlar Ermənistanı tərk edəcəklər. Bu aspektdə yeni hökumət qurmaq çalışmaları reallıqda Ermənistanı yeni ziddiyyətlər müstəvisinə çəkmək anlamına gəlir.

**Newtimes.az**




# Sarkisyanın təxribatları...



## İşğalçılıq siyasəti Ermənistanı dalana dirəyib








***Son günlər cəbhəboyu təmas xəttində erməni silahlı birləşmələrinin təxribatlarının qarşısı Azərbaycan Ordusu tərəfindən alınması Ermənistanın ictimai rəyində qorxu və vahimə yaradıb. Daha dəqiq desək, hələ ötən ilin aprelində baş verən və ərazilərimizin bir hissəsinin geriyə qaytarılması ilə nəticələnən "dördgünlük müharibə"dən sonra işğalçı qüvvələrin bu və ya digər şəkildə öz məğlubiyyətlərini xalqdan gizlətmək cəhdləri də nəticəsiz qaldı.***

Erməni ekspertlərinin sözlərinə görə, Sarkisyanın yenə də təxribat-diversiya hərəkətlərindən əl çəkməməsi, bir daha təsdiqləyir ki, Ermənistan hakimiyyəti silahlı birləşmələrin rəhbərliyinə özü "xüsusi" tapşırıq verib. Bir səbəb ölkə daxilində ona qarşı çox güclü bloklar yaradılmasıdırsa, digər səbəb isə, sərhəddə keçirilən monitorinqlərdir. Deyildiyinə görə, guya Azərbaycan tərəfi ATƏT-in missiyasını təmas xəttinə çıxarmayıb. Başqa bir tərəfdən isə, ermənilər tərəfindən Azərbaycana qarşı iftiraların atılması heç də təəccüblü deyil. İşğalçı ölkə, çox yaxşı bilir ki, bu gün Azərbaycan Ordusu kifayət qədər güclü və qətiyyətlidir və döyüş qabiliyyəti yüksəkdir. Ordumuz, nəinki hansısa təxribatlara cavab verməyə, daha genişmiqyaslı döyüşlərə də hazırdır. Müdafiə Nazirliyi dəfələrlə işğalçı ölkəyə xəbərdarlıq edərək bildirir ki, bu cür təxribatları davam etdirərsə, düşmənə vurulacaq zərbə daha ağır və sərt olacaq. Təxribat törətdiyinə görə isə, Ermənistan yenə də peşman olacaq, aprel döyüşlərində olduğu kimi. İşğalçı ölkəni idarə edən hərbi rejim isə, birmənalı tərzdə başa düşməlidir ki, onun işğal etdiyi və üzərində oturduğu torpaq başqa bir dövlətə məxsusdur, bu torpağın sahibinin iradəsi burada əsas rol oynamalıdır. Ermənistan əhalisi də, bunu başa düşməlidir ki, işğalçılıq siyasətinin sonu yoxdur. Çünki güclü Azərbaycan gücsüz Ermənistanla istənilən dildə danışa bilər.

### Aydın Mirzəzadə: "İşğalçılıq siyasəti Ermənistanı izolyasiya şəraitinə salıb"

"Ermənistan bu gün özünün çox ağır bir vəziyyətini yaşayır, prezident Sarkisyan isə, vəziyyətdən çıxış yolunu ancaq Dağlıq Qarabağ mövzusunu tez-tez gündəmə gətirməklə, milli təəssübkeşlik hissində oynamaqla görür". Bunu millət vəkili Aydın Mirzəzadə Ermənistanda cərəyan edən son hadisələri şərh edərkən bildirib. Millət vəkili hesab edir ki, bu gün Ermənistanda cərəyan edən hadisələrin kökü daha əvvələ gedib çıxır. Bu hadisələr Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın dövründən dövlətçilik siyasətinin düzgün aparılmaması ilə bağlıdır.

Onun sözlərinə görə, Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi, Türkiyəyə qarşı ərazi iddiası Ermənistanı izolyasiya şəraitinə salıb: "Bu gün Ermənistanın iqtisadiyyatını inkişaf etdirən bir faktor yoxdur, xaricdən investisiya qoymaq istəyən də tapılmır. Bu, ona gətirib çıxarır ki, Dağlıq Qarabağ problemi onun boynundan ağır bir yük kimi asılıb. Buna görə də, hərbi büdcəsini daim yüksək səviyyədə saxlamağa məcburdur, əhalinin sosial problemləri isə günbəgün artır. Bu baxımdan da, vaxtaşırı Ermənistanda durum sosial partlayış vəziyyətinə qədər gəlib çatır".

### Elxan Şahinoğlu: "Son hadisələr birbaşa Ermənistanın işğalçılıq siyasəti ilə əlaqədardır"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Ermənistan iqtisadiyyatının və ölkədəki sosial vəziyyətin bərbad gündə olduğunu bildirib: "Bütün bunlar Ermənistan hakimiyyətinin yürütdüyü siyasətin nəticəsidir. Hətta baş verən son hadisələr birbaşa Ermənistanın işğalçılıq siyasəti ilə də əlaqədardır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistan dövləti bu siyasətdən əl çəkməyənə qədər, regional layihələrdə iştirak etməyəcək. Həmçinin, Ermənistan bütün fabrik və zavodlarını ucuz qiymətə Rusiya şirkətlərinə satıb. Üstəgəl rus şirkətləri də həmin zavod və fabrikləri işlətmək marağında deyillər. Elektrik enerjisi də Rusiya şirkətinin əlindədir. Qiymət artımı da həmin şirkətin qərarı ilə həyata keçirilib. Hazırda bu qərar bir müddət ərzində dondurulub. Ermənistan prezidenti mitinqlərindən çəkindiyi üçün belə bir qərar vermək məcburiyyətində olub. Lakin insanlar evlərinə getsələr belə, sabah yeni bir sosial gərginliyin yaranacağı istisna deyil".

### Tobias Zeç: "Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoymalıdır"

Almaniya Federativ Respublikası Bundestaqının Xristian-Sosialist İttifaqı Fraksiyasının üzvü Tobias Zeç, artıq iyirmi iki ildən artıqdır ki, Ermənistanın beynəlxalq hüququ pozaraq Dağlıq Qarabağı işğal altında saxladığını bildirib: "Bu siyasət BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə ziddir. Buna görə də, Avropa ictimaiyyəti mövcud status-kvonu qəbul edə bilmir. Odur ki, Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoymalıdır. Həmçinin, qondarma "Dağlıq Qarabağ Respublikası"nın birtərəfli qaydada elan edilməsi, hələ də beynəlxalq ictimaiyyət tərəfindən tanınmır".

Tobias Zeç son zamanlar qoşunların təmas xəttində gərginliyin və toqquşmaların artması ilə bağlı məsələyə münasibət bildirərək, vurğulayıb ki, biz intensivləşən bir münaqişənin şahidi oluruq: "Bu isə, təmas xəttində beynəlxalq monitorinqi təhlükəyə çevrir. Odur ki, ATƏT mühüm bir vasitəçi olaraq, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün beynəlxalq hüququn mərkəzi prinsipləri əsasında formalaşdırılmış "Madrid Prinsipləri"nin irəli çəkilməsini gücləndirməlidir. Mən təkrar edirəm: buraya, həmçinin, Ermənistan tərəfindən işğal edilmiş rayonların qaytarılması və bütün qaçqın və məcburi köçkünlərin geri qayıtması məsələsi daxildir. Yuxarıda qeyd etdiklərimi nəzərə alaraq, biz Ermənistanın işğalçı qüvvələri tərəfindən gərginliyin yenidən artırılmasını pisləyirik".

Ekspertlərin fikrinə əsaslanaraq demək olar ki, Sarkisyan eyni siyasəti yürüdəcəyini düşünərək, uzun müddət Ermənistanın prezidenti kimi qalacağını hesab edirsə, yanılır. Ən azından, ötən il baş verən aprel qələbəmiz onun yanılmasının məntiqi nəticəsidir. Görünür, belə davam edərsə, onda yenidən həmin dərsi verməyin vaxtı çatıb.

***A.SƏMƏDOVA***

# AXCP- Müsavat siyasi arenada

## *Partiyalararası savaş davam edir*

***Dağıdıcı müxalifət düşərgəsində AXCP ilə Müsavat arasındakı soyuq münasibətlərin daha da qızışaraq, kəskin gərginlik halına çatması ilə bağlı fikirlər səngimir. Bu soyuq münasibət sübut edir ki, adıçəkilən siyasi təşkilatlar arasındakı vəziyyət bundan sonra, ümumiyyətlə, yaxşılığa doğru dəyişməyəcək.***

AXCP sədri Əli Kərimlinin müavinləri Fuad Qəhrəmanlı və Gözəl Bayramlı həbs olunmamışdan əvvəl Müsavat partiyasına qarşı yönəlmiş ittihamları, ayrı-ayrılıqda AXCP-nin müsavatçılara qarşı yeni hücum taktikasının olduğunu göstərir. Hər halda, Kərimli və tərəfdarları bu gün də Müsavatın onlarla bir yerdə olmaqdan imtinası ilə barışmadıqlarını, hətta barışmayacaqlarını aşkar şəkildə sərgiləməkdədir. Ümumiyyətlə, bu proses özünü dəfələrlə təkzibedilməz şəkildə təkrar edib. Məsələn, AXCP-nin sədr müavini, "Milli Şura"nın üzvü Nurəddin Məmmədli açıqlamasında bildirir ki, "bir sıra partiyaların təmsilçiləri AXCP üzvlərinə qarşı əsl düşmən kimi davranırlar".

### O da deyir, bu da deyir...

Məhz belə bir məqamda, Müsavat partiyasının üzvləri də qarşı tərəfə cavabı gecikdirməyərək bildiriblər ki, əslində, AXCP-"Milli Şura" bu vasitəylə Müsavata qarşı hücuma keçib və bildiriblər ki, cəbhəçilər mənəm-mənəmliklə məşğul olmaqdadırlar: "Bununla AXCP və "Milli Şura"nın Müsavatın bostanına atdığı daşı geriyə qaytaran müsavatçılar dolayı yolla düşmən münasibətində olduqları cəbhəçilərə qarşı ittihamlarını davam etdiriblər. Çox təəssüflər olsun ki, bəzi siyasi partiyalar, yəni AXCP və ya "Milli Şura" mübarizəsini müxalifətin daxilinə daşıyır, bunun üçün işləyir, mübarizəni Müsavatla aparır".

Bu qarşıdurmada ən maraqlı məqam isə müsavatçıların belə bir qarşıdurma və savaş əsnasında yenidən Müsavatı "ana müxalifət partiyası" qismində təqdim etmələridir. Müsavatçı funksionerlər Ə.Kərimlinin və ətrafının insanlara yalan danışdığını və çaşqınlıq yaratmaq istəyənlərin toplaşdığını bildiriblər.

### Sərdar Cəlaloğlu: "AXCP-nin və Müsavatın arasındakı qarşıdurmalar birincilik uğrunda mübarizənin ifadəsidir"

Bu arada AXCP və Müsavat arasında yaşanan yeni və daha gərgin böhrana digər müxalifət partiyalarından da münasibətlər bildirilməkdədir. ADP sədri Sərdar Cəlaloğlu AXCP ilə Müsavat arasındakı qarşıdurmaları, önə keçmək istəyinin ifadəsi kimi qiymətləndirib. ADP sədri də də hesab edir ki, müxalifət birincilik uğrunda mübarizə aparır: "...Ayrı-ayrı partiyaların bir-biri ilə "ana müxalifət mənəm" yarışı keçirməsi lazım deyil...Azərbaycan müxalifətinin bu xəstəliyi hələ də qalmaqdadır. Təbii ki, bu da, çox yanlış addımdır".

S.Cəlaloğlu onu da qeyd edib ki, istər Müsavat, istərsə də AXCP keçirdikləri aksiyalarında insanların sayını şişirtməklə siyasi reytinq qazanmağa cəhd etmək yanlışlıqdır.

Beləliklə, görünən budur ki, artıq hər iki dağıdıcı müxlaifət partiyaları arasındakı münasibətlər açıq savaş həddinə doğru inkişaf edib və bu dəfə həmin savaşdan heç birinin salamat şəkildə çıxacağını demək olmaz.

***Rəfiqə HÜSEYNOVA***

# Müsavatın "REAL" təhlükəsi

## *Əli Kərimlidən sonra Arif Hacılı "realçıların" onları əzib keçmələrindən ciddi narahat olub*

***Son günlər "Respublikaçı Alternativ Hərəkatı" və ənənəvi müxalifət düşərgəsində təmsil olunan digər siyasi qurumlar arasında kəskin qarşıdurmalar müşahidə olunmaqdadır. Buna səbəb adıçəkilən hərəkatın düşərgədaxili fəallığının Müsavat, AXCP, ADP, AMİP və digər ənənəvi partiyaların fəaliyyətini kölgədə qoymasıdır. Xatırlatmaq olar ki, hələ bir müddət öncə, "REAL"-ın icraçı katibi Natiq Cəfərlinin AXCP və "Milli Şura" təmsilçiləri ilə bağlı sosial şəbəkədə bir-birinə ünvanlanan ittihamlar baş vermişdi. O, ənənəvi düşərgə təmsilçilərini köhnəpərəstlikdə və xarici qüvvələrdən sifariş almaqda ittiham etmişdi.***

### Natiq Cəfərli müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, "azadlıq" və digər ənənəvi şüarlarını "devalvasiyaya uğratmaqda" ittiham edib

Hazırda isə "REAL" funksioneri bənzər halı müsavatçılarla yaşamaqdadır. Müsavat partiyasına qarşı da, eyni ittihamlar irəli sürən N.Cəfərli bu dəfə nəinki Müsavatın A.Hacılının klanı, o cümlədən, "ölü partiya" kimi fəaliyyət göstərən "Əhrar" sədri, A.Hacılının qardaşı Vaqif Hacıbəyli tərəfindən də cavablandırılıb. Qeyd edildiyi kimi, səbəb eynidir, sadəcə, bir az fərqli yanaşma ilə. Belə ki, N.Cəfərlinin bu günlərdə yazdığı "yeni müxalifətçilik konsepsiyası" adlı məqalə nədənsə müsavatçıları hiddətləndirib.

Konkret desək, N.Cəfərli müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, "azadlıq" və digər ənənəvi şüarlarını "devalvasiyaya uğratmaqda" ittiham edib və s. Üstəlik, "REAL"-ın həbsdə olan sədri İlqar Məmmədovun mövcud vəziyyətinə də istehzalı münasibət bildirib. SİTAT: "Ümid edirəm ki, nə vaxtsa, hörmətli "REAL"-çılar da İ.Məmmədovun həbsdən azad edilməsi ilə əlaqədar cəmiyyətə çoxdan vəd etdikləri mitinqi təşkil edəndə, "Azadlıq" şüarının hələ arxivə atılmasının mümkün olmadıqlarının şahidi olacaqlar..."

### Arif Hacılının qardaşı "REAL"-ı "çürümüş" adlandırıb

Bu arada A.Hacılının partiyadaxili klanının üzvü, Müsavatın qadınlar təşkilatının sədri Ayla Yaqublu da N.Cəfərliyə bir sıra ittihamlı suallar ünvanlayıb. Müsavatçını dolayı yolla "girə bilmədiyin yerlərə başını soxma" ittihamına məruz qoyan N.Cəfərli sonda müsavatçılara xatırladıb ki, 20 ildə keçirdiyiniz heç bir mitinqdə uğur əldə edə bilməməyinizin özü, irəli sürülən ittihamların sübutudur. SİTAT: "O ki qaldi çürümüş "REAL" mitinq keçirə bilmir" tezisinə, V.Hacıbəyli, 20 ildir mitinqi məqsəd elan etmisiniz, mitinq normalda vasitədir. On vasitədən biri - 9-nu edib, birini etməmək isə ayıb deyil".

Beləliklə, "REAL" rəsmisi N.Cəfərli irəli sürdüyü ittihamlarında müxalifəti birliyə dəvət edib və şüarlarda da müəyyən dəyişikliklərin edilməsini təklif kimi qeyd edib. Amma qarşı tərəf buna cavab olaraq, İ.Məmmədovun həbsini, eləcə də, onun azadlığı tələbi ilə bağlı illərdir ki, söz verdikləri mitinqlərini keçirə bilmədiklərini xatırladıb. Göründüyü kimi, ənənəvi düşərgədə dağıdıcılıq faktorları bu dəfə qarşılıqlı ittihamlar fonunda sərgilənir ki, bu da orada yeni savaşların yaranması proqnozlarını kifayət qədər reallaşdırmış olur.

***Rövşən NURƏDDİNOĞLU***

# "1 illik ödənişli hazırlıq qrupları gənclərin təhsilə cəlbinə şərait yaradacaq"



"Təhsil haqqında" qanuna ölkənin ali təhsil sistemində bakalavriat səviyyəsində bir illik ödənişli hazırlıq qruplarının təşkil olunması ilə bağlı təklif olunan dəyişiklik zamanında edilən və vacib təklifdir". Bunu SİA-ya açıqlamasında təhsil üzrə ekspert Əjdər Ağayev deyib. O bildirib ki, layihəyə təklif olunan dəyişiklik həm ali məktəblərə qəbul oluna bilməyən gənclərin xaricə axınının qarşısını alacaq, həm də onların bilik səviyyəsinin artırılmasına yardım edəcək: "Düzdür, elə gənclərimiz var ki, onlar ölkəmizdə də təhsil alandan sonra təhsillərini təkmilləşdirmək üçün xaricə üz tuturlar. Amma ölkəmizdə ali məktəbə qəbul ola bilməyən bir sıra gənclərimiz var ki, onlar xaricdə imtahansız qəbul keçirən ali məktəblərə təhsil almağa gedirlər. Bu baxımdan qanuna təklif olunur ki, ölkəmizdə ali təhsil sistemində bakalavriat səviyyəsində bir illik ödənişli hazırlıq qrupları təşkil olunsun və xaricdə imtahansız oxumağa gedən gənclər hazırlıq kurslarına getməklə öz ölkəmizdə təhsil almaq imkanı qazansınlar. Artıq yeni təklifə əsasən ali məktəbə qəbul olmayan abituriyentlər bir il hazırlıq kursundan keçəndən sonra buraxılış imtahanlarında iştirak edəcəklər və burada yüksək nailiyyət əldə etdikləri zaman istədikləri ali məktəbə qəbul ola biləcəklər". Layihə təklif olunan dəyişikliyi faydalı hesab edən ekspert söyləyib ki, bu eyni zamanda gənclərin ümumtəhsil məktəblərindən sonra geniş miqyasda təhsilə cəlbinə şərait yaradacaq: "Etiraf edək ki, ali məktəbə qəbul olmayan gənclərin bir qismi xaricə getsə də, böyük qismi işsiz-gücsüz qalır. Qanun layihəsinə edilən təklif bu halların qarşısını alacaq. Dəyişiklik qəbul olunduqdan sonra imtahanlardan kəsilən gənclər bir illərini boş yerə sərf etməyəcək, təhsillərini daha da təkmilləşdirəcəklər. Bu baxımdan sözügedən təklifin tezliklə reallaşmasının böyük faydası ola bilər". Ə. Ağayev qeyd edib ki, ödənişli kursların təşkilinin digər faydalı cəhəti abituriyentlərin hansısa ali məktəbə gedib, orada hazırlıq keçmək əvəzinə öz ixtisaslarıma uyğun seçmək imkanı qazanmaqdan ibarət olacaq: "Bu da abituriyentlərə seçəcəyi ixtisasa uyğun hazılıq keçmək imkanı verəcək. Ümumiyyətlə bizdə orta məktəb şagirdlərinin qrammatik, nitq savadları zəifdir. Bu baxımdan ödənişli kurslarda ilk növbədə uşaqlara bu sahələrdə düzgün təlim keçirilməlidir. Düşünürəm ki, təlim kurslarında Azərbaycan tarixi və ixtisasa uyğun fənlər öyrədilməlidir. Təbii ki, bütün bunlar iş planı çərçivəsində həyata keçirilməlidir, əks halda onun effekti olmaz". Ekspert əlavə edib ki, ödənişli hazırlıq kursları bütün ali məktəblərdə təşkil olunmalıdır: " Əslində bu yeni deyil. Əvvəllər də ali məktəblər abituriyentləri qəbul edir, 1 il hazırlıqdan sonra tələbələrə I kursda oxumasına imkan verirdi. Hazırda bəzi ali məktəblərimizə balla daxil olan abituriyentlər 1 il müddətindən dil, kompüter texnologiyası üzrə hazırlıq kursu keçirlər. Abituriyentlər bu sahələr üzrə mükəmməlləşdikdən sonra onlar I kursda təhsil almağa başlayırlar. Çünki həmin ali məktəblərdə təlimlər xarici dildə keçirilir". Qeyd edək ki, Milli Məclisin Elm və təhsil komitəsinin iclasında "Təhsil haqqında" qanuna dəyişiklik müzakirə edilib. Layihəyə əsasən hazırlıq qruplarında tədrisin sonunda keçirilən buraxılış imtahanlarında müvəffəqiyyət qazanan tələbələr ali təhsil müəssisələrinin birinci kursuna qəbul olunacaqlar. Yekunda "Təhsil haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Nailə Məhərrəmova***

## Anbarlara təbii qazın vurulması davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının göstərişinə əsasən, SOCAR tərəfindən ölkənin təbii qaza olan tələbatının davamlı təminatı və ixrac imkanlarının genişləndirilməsi məqsədi ilə yeraltı qaz anbarlarının aktiv tutumunun artırılması istiqamətində tədbirlər davam etdirilir, yeni qaz-basqı quyuları istismara verilir, mövcud quyularda təmir-bərpa işləri aparılır. SOCAR-dan SİA-ya verilən məlumata görə, bununla paralel olaraq, cari ilin aprel ayından ''Azneft'' İstehsalat Birliyinin Qaz Anbarlarının İstismarı İdarəsinin "Qaradağ" və "Qalmaz" yeraltı qaz anbarlarına 2017-2018-ci il üzrə payız-qış mövsümü üçün təbii qazın vurulmasına başlanılmışdır. Mövcud qrafikə uyğun olaraq, artıq iyunun 1-dək yeraltı qaz anbarlarına 547 milyon kubmetr həcmində "mavi yanacaq" vurulub. Bu həcmin 255,5 milyon kubmetri "Qaradağ", 291,5 milyon kubmetri isə "Qalmaz" qaz anbarlarının payına düşüb. Hazırda ötən mövsümdən qalıq qazla birlikdə yeraltı anbarlarda aktiv qazın miqdarı 1 milyard 334 milyon 994 min kubmetrdir.

TƏRS BAXIŞ

# Eldar Namazov yenə görünməyə başlayır - "ana müxalifət" olmaq üçün

## Səbəb 2018-ci ildə keçiriləcək prezident seçkiləridir

***Son zamanlar dağıdıcı müxalifət düşərgəsində cərəyan edən hadisələr, xüsusilə, Gürcüstanda maliyyə donorları vasitəsilə özlərini ayaqda saxlamağa çalışan müxalifətçilərin ifşa olunması, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, ənənəvi müxalifət partiya sədrlərinin müstəqil siyasi fəaliyyət göstərmələri mümkünsüzdür. AXCP, Müsavat və bu kimi siyasi təşkilatlar xarici anti-Azərbaycan meyilli qüvvələr qarşısında müəyyən xəyanətkar öhdəlikləri götürərək, seçkilərdən-seçkilərə ortada görünməyə və müəyyən təxribatlar törətməyə çalışırlar.***

### AXCP-Müsavat didişməsindən istifadə edərək, Qərbdən dəstək almağı planlaşdırıb

Bu arada uzun müddətdir ki, ortada görünməyən və fəaliyyətsizliyi ilə yadda qalan "El" hərəkatının sədri Eldar Namazovun səsi gəlməyə başlayıb. Çox yəqin ki, onun düşərgədaxili "zühuru" da 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident eçkilərilə bağlıdır. Bəlli olan isə, budur ki, o, 2013-cü il prezident seçkilərindən sonra daha da şiddətlənən AXCP-Müsavat didişməsindən istifadə edərək, Qərbdən dəstək almağı planlaşdırıb. Çox yəqin ki, Namazov uzun illərdir ürəyində gizli saxladığı "ana müxalifətçi" olmaq sevdası ilə yaşadığına görə, hazırkı məqamı ən uyğun zaman kimi seçib. Əslində, "El" sədrinin maraqlarında müəyyən həqiqətlər də var, amma bu həqiqətlər onun öz istəyinə çatmasını reallaşdıra bilməz. Məsələn, E.Namazov "Milli Şura"nın faktiki dağılmasını dərk edir və dağıdıcı partiya "liderləri"nin qarşıdurmalarından yaranan



amillərin, məhz onun xeyrinə olduğunu düşünür.

### Cəmil Həsənli faktoru onun bu marağının da qarşısını kəsmişdi

İndiki vaxtda da özünü cəmiyyətə "El" hərəkatının "lideri" kimi təqdim edən Namazovun hər zaman "liderliyə" can atması isə daha qabaqkı illərdən bəllidir. O, "ANİF"-in sədri olarkən də, bu iddiada idi, "Milli Şura"ya üzv olanda da. Hətta 2013-cü ildə Rüstəm İbrahimbəyovun Bakıya gəlişi mümkün olmadığı zaman, E.Namazov öz namizədliyini irəli sürməyi düşünürdü. Əlbəttə, Cəmil Həsənli faktoru onun bu marağının da qarşısını kəsdi. Bütün bunlardan sonra Namazov geriyə çəkilərək, mümkün zamanını gözləməyə başladı. İndi isə, düşərgənin Gürcüstan ifşasının ardınca "El" sədri hücum etməyin ən münasib vaxtı olduğunu fikirləşir. 2018-ci il prezident seçkiəri ərəfəsində onun Qərbin müəyyən dairələri ilə danışıqlara getdiyi məlum olub.

Lakin etibarlı mənbələrdən sızan digər məlumata görə, Azərbaycan əleyhinə fəaliyyət göstərən xarici təşkilatlar E.Namazovla kontakta girsələr də, onun qarşısında öhdəlik qoyublar. Həmin öhdəliklərdən biri hərəkatın siyasi partiyaya çevrilməsi tələbidir. Hətta ABŞ-dakı bəzi təşkilatlar maliyyə donoru olaraq, "El" hərəkatına maddi və mənəvi dəstək verəcəklərini də Namazovun diqqətinə çatdırıblar.

### Müxalif düşüncəli və azsaylı ictimai rəy də "papkadaşıyan" ləqəbli siyasətçini lider kimi qəbul etmək fikrindən qat-qat uzaqdır

Ancaq E.Namazovun bunun üçün özünə elektorat toplamalı olması faktı onu ciddi narahat etməyə başlayıb. Çünki əlinə gələcək vəsaitlə, o, uzağı öz qohum-əqrəbalarını "El"ə üzv yazdıra bilər. Beş-on nəfərlə isə partiya yaratmağın, necə deyərlər, yeri yoxdur.

E.Namazovun "ana müxalifət" olması üçün boynuna qoyulan digər öhdəliklər isə belədir: bütün seçkilərdə fəal iştirak etmək, siyasiləşmiş QHT-lərlə yaxın münasibət qurmaq, hakimiyyətə qarşı mitinq və piketlər təşkil etmək və s.

Lakin faktiki olaraq, E.Namazovun "ana müxalifətçi" olması real görünmür. O, ictimai-siyasi proseslərdən başqa vaxtlarda ortalıqlarda görünmür və bu amil onun siyasi gündəmdən silinməsinə gətirib-çıxarır. Eyni zamanda, müxalif düşüncəli və azsaylı ictimai rəy də "papkadaşıyan" ləqəbli siyasətçini lider kimi qəbul etmək fikrindən uzaqdır. Ona görə də, E.Namazovun arzusunun ürəyində qalacağını bəri başdan proqnozlaşdırmaq olar.

Rövşən RƏSULOV

***P.S. Bir də ki, Azərbaycanda "ana müxalifət" partiyası əzəldən olmayıb. Çünki bunun üçün xalqın dəstəyini almaq gərəkdir. Düşərgədəki heç bir partiya xalq dəstəyi almamaqla yanaşı, siyasi gündəmdə "uğursuzlar yığnağı" kimi tanınmaqda davam edir.***

# Əbülfəz Qurbanlı "Milli Şura"nın son mitinqinə niyə gəlmişdi?

2015-ci il iyul ayının 8-də AXCP-dən istefa verən Əbülfəz Qurbanlı, uzun müddət idi iki, ölkədə yox idi. Onun Dağıstanda fəhlə işlədiyi ilə bağlı məlumatlar zaman-zaman mətbuatda tirajlansa da, bir çoxları bunun doğru olmadığı iddiasını irəli sürdülər. Məsələn, ondan əvvəl AXCP-dən istefa verən Asəf Quliyev bildirib ki, Ə.Qurbanlı, əslində, Avropa ölkələrindən "siyasi sığınacaq" istəyib. Lakin bunun üçün lazım olan "sənəd"ləri Əli Kərimlidən gizli şəkildə topladığı üçün xeyli çətinliklə üzləşib. Bildirilir ki, Ə.Qurbanlının Avropa ölkələrinə "siyasi mühacir" kimi getməsinə birbaşa Ə.Kərimli mane olub. Hətta onun qarşısında şərt qoyulub ki, əgər Avropaya getsə, şərlənəcək və nəticədə, deportasiya olunacaq. Bütün bunlardan sonra Azərbaycana qayıtmağı özünə "ar bilən" Ə.Qurbanlı Dağıstana yaxın dostlarının yanına gedib. Orada fəhlə işlədiyini bəyan eləməklə, nəzərlərini məsələnin əsl mahiyyəti üzərindən yayındırmağa çalışıb. Ə.Qurbanlı hazırda Bakıdadır, hətta "Milli Şura"nın 8 aprel mini aksiyasına da gəlmişdi.



Məlum olduğu kimi, "Milli Şura" hər dəfə mitinqdən sonra 5-10 min pulun müqabilində insanları Avropa ölkələrinə "siyasi mühacir" adı altında göndərir. Hətta öz yaxın qohum-əqrəbalarını da bu yolla Azərbaycandan didərgin salan Ə.Kərimlinin mitinqdən sonra başını qaşımağa vaxtı olmur. Elə Ə.Qurbanlının da bu məqsədlə AXCP sədri tərəfindən "bağışlanıldığı" qeyd olunur. Bildirilir ki, Ə.Qurbanlı "Milli Şura"nın sonuncu mitinqinə də, məhz şəkil çəkdirmək üçün gəlib. Mitinqdə çəkilən fotodan sonra, o, "fəal" və "təzyiq"lərə məruz qalan müxalifətçi kimi təqdim olunaraq, "siyasi mühacir" kimi Avropaya getməyə çalışacaq.

AXCP üzvü Məsud Aliyev Ə.Qurbanlının "Milli Şura"nın son mitinqində iştirak etməsinə Facebookda açıq şəkildə münasibət bildirməsi də, sübut edir ki, o, həqiqətən də, Bakıya məqsədli şəkildə gəlib və yaxın vaxtlarda hansısa yollarla xaricə gedəcək. M.Aliyev yazır: "Əbülfəzin AXCP-dən istefa xəbərini oxuyanda, təəccüblənmədim. Dünyanın işinə bax, əvvəllər xaricə adam göndərən adam, indi özü kimlərinsə ayaqlarına düşüb".

Xatırladım ki, M.Aliyevin bu statusundan sonra sosial şəbəkələrdə cəbhəçilər tərəfindən onun əleyhinə təhqir dolu şərhlər yazılıb. İş o həddə çatıb ki, məsələyə AXCP sədrinin müavini Nurəddin Məmmədli qarışmalı olub. Lakin onun da mövqeyi digərlərindən fərqlənməyib: "Biz heç kimə yalvarmırıq, özü bilər. Xaricə də getmək istəyirsə, bunu da bacarar".

Göründüyü kimi, tamamilə qeyri-müəyyən danışan N.Məmmədli Ə.Qurbanlının məhz AXCP sədrinin saxta sənədləri ilə xaricə göndəriləcəyini inkar etmir, bir növ bunu normal hal kimi qəbul edərək özünü soyuqqanlı göstərməyə çalışır.

**Samir**

# Müxalifəti acı sonluq gözləyir

***Bu gün müxalifət düşərgəsində anormal mühit yaranıb. Xarici maraqlı qüvvələrin istək və tələblərinə uyğun olaraq, irəli sürülən təklifləri elə müxalifət düşərgəsində rədd edildiyindən, liderçiklər küçə yürüşləri və mitinqlər keçirmək iddiaları ilə çıxış edirlər.***

Amma reallıq budur ki, həmin aksiyalar iflasla nəticələnir. Bu isə, o deməkdir ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədləri ilə onların xaricdəki ağaları arasında ciddi ixtilaflar yaranır. Məhz bu ixtilafların nəticəsidir ki, xarici qüvvələr müxalifətlə bəzi məsələlərdə əməkdaşlıq etməkdən imtina edirlər. Bu günlər "Milli Şura"nın sədri Cəmil Həsənlinin, eləcə də Müsavat başqanı Arif Hacılının Avropaya səfərlər etmələri, məhz yaranan ixtilafların aradan qaldırılması üçün hesablanan səfərlər olub. Böyük Quruluş Partiyasının Ali Məclisinin sədri Əjdər Əliyev "Səs" qəzetinə açıqlamasında bildirdi ki, artıq xarici qüvvələr heç bir işə yaramayan, sadəcə, aldıqları maliyyə yaradımalarını silməklə məşğul olan müxalifətlə iş birliyinə getməkdən imtina edirlər: "Avropaya, eləcə də başqa qitə və ölkələrə səfər etməklə, siyasi hakimiyyətə çatmaq mümkün olsaydı, səyyahlar və turistlər, yəqin ki, dünyanın siyasi elitası hesab olunardı. Qarşıya qoyulan hədəflərə nail olmaq üçün xarici ölkələrdən imdad diləməkdənsə, hər şeydən əvvəl, mənsub olduğun ölkə vətəndaşlarının rəğbətini qazanmaq, onların səsləri



və xitab etdikləri elektoratın etimadını əldə etməyin yolları haqda düşünmək yaxşı olardı".

Ə.Əliyevin sözlərinə görə, bir ölkənin daxili dəstəyini qazanmayan heç bir siyasi qüvvənin dayanıqlı uğur qazanması mükün deyil: "Onu da qeyd edim ki, partiyaların real gücü vəsiqələr, üzvlük biletləri və sairlə müəyyən edilmir. Siyasi təşkilatların gücü nizamnamə çərçivəsində fəaliyyət göstərmələri, yerli, rayon, regional təşkilatların rəhbər tutulan sənədlərə, əsasnamələrə müvafiq şəkildə fəaliyyətləri, hesabat-seçki konfranslarını vaxtlı-vaxtında keçirmələri, yerli və ümumrespublika miqyaslı seçkilərdə iştirakları və hansı effektiv nəticələrə nail olmaları ilə müəyyən edilir. Digər tərəfdən, partiyaların uğurlu və yaxud uğursuz fəaliyyətində əsas amillərdən biri də rəhbərlik tərəfindən sağlam və işgüzar daxili atmosferin yaradılmasıdır. İstənilən siyasi təşkilatın daxilində münasibətlər ədalətli və sağlam zəmində qurulmursa, həmin təşkilatlar özlərini süni şəkildə böyütməklə məşğul olurlar".

"Sizcə, nəyə görə, dağıdıcı müxalif ünsürlər xaricə gedən kimi, ölkəmiz əleyhinə şər və böhtan dolu bəyanatlar səsləndirirlər" sualına cavab olaraq Ə.Əliyev bildirdi ki, hansısa xarici ölkədə Azərbaycanın daxili problemlərdən partiya və qrup mənafeyi üçün istifadə edilməsi qəbuledilməzdir: "Bir misal çəkim. Bu yaxınlarda Türkiyədə referendumun təşviqatı mərhələsində, Avropanın bir çox ölkələri iqtidar təmsilçilərini qəbul etmək istəmədilər. Ölkə daxilində barışmaz rəqabət içərisində olsalar da, Türkiyənin ana müxalifət partiyası olan CHP həmin ölkələrdə icazə verilən təbliğat tədbirlərini keçirməkdən imtina etdi. Bu, bir nümunədir və həmin ənənənin bizim ölkənin siyasi həyatında da bərqərar olması vacibdir".

**GÜLYANƏ**

# İnsan hüquq və azadlıqları Azərbaycan reallıqları kontekstində

***XXI əsri insan hüquq və azadlaqlarının müdafiəsi "əsri hesab" etmək olmaz. Çünki dünyada baş verən təlatümlü hadisələri, qanlı terror aktları birbaşa insana və insanlığa qarşı çevrilmişdir. Bu baxımdan, Ziba Ağayevanın bu fikri maraq doğurur: "XX əsri fəlsəfədə insan, onun problemlərinə doğru çevriliş əsri də adlandırırlar. Məsələ onda deyil ki, XX əsr insan varlığının təməl sirlərini açan, "insan əsri" ola bilmədi. Bəlkə hələ XXI əsrdə də "insan əsri" ola bilməyəcək. Məsələ ondadır ki, insana varlığın mənəvi əsaslarına diqqətin vurğulanması, dünyadakı başlıca problemlərin də, onların həlli vasitəsinin də insan olduğu dərk edildi, yaxud başlanğıcı qoyuldu.***

Bu problemlərin həllini maddiyatda, iqtisadiyyatda, texnikada görən baxışlardan tam fərqli bir mövqe idi. İnsanın da dünyanın da taleyinin mənəviyyat aləmindən, bilavasitə asılı olduğunun etiraf edilməsi idi.

Məhz XX əsrin humanist təlimlərinin təkan verdiyi dalğa, insan probleminin müxtəlif elmlərin təhlil obyektinə çevrilməsi ilə əks-səda verdi".

Azərbaycan reallığında insan hüquq və azadlıqlarının müdafiəsi dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Bu hüquqlara bütün liberal hüquqlar aid edilir: "Bu hüquqlar mütləqdir və konkret ölkənin inkişaf səviyyəsindən asılı deyil, yalnız insan şəxsiyyətinin suverenliyini və onun sərbəst seçiminə dövlət tərəfindən hörmətli münasibəti nəzərdə tutur" (A.İ.Solovyov).

Dövlət və cəmiyyət insana müəyyən rifah - əmək, təhsil, istirahət, sosial yardım hüquqları təqdim edir. Professor, millət vəkili Hikmət Babaoğlu bu tipli hüquqların təminatı haqqında yazmışdır: "Bu halda bu hüquqların təminatı, bilavasitə dövlətin sosial-iqtisadi inkişaf səviyyəsindən, siyasi sistemin demokratikliyindən, hakim dairələrin müvafiq dövlət siyasətinin real surətdə həyata keçirilməsində maraqlı olmasından və cəmiyyətin idarəetməsinin bu xarakterini təmin edə bilən dövlət qulluqçularının peşəkarlığından asılıdır. Aydındır ki, insanın sağlamlığının mühafizəsi hüququnun təmin edilməsi üçün inkişaf etmiş müalicə müəssisələri infrastrukturunun, sığorta kompaniyalarının və müvafiq maddi ehtiyatların olması zəruridir. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, hətta bu ehtiyuatlar olsa belə, əgər dövlətdə hakim dairələr bu hüquqların reallaşmasında maraqlı olmasalar və yaxud bu istiqamətdə dövlət siyasətinin həyata keçirilməsi üçün dövlət qulluqçularının lazımi bacarıqları yoxdursa, sosial yardımın bu növü formal bəyannamə olaraq qalar".

Azadlıq, fiziki və texniki şəxsi toxunulmazlıq insan hüquq və azadlıqlarının əsas tərkib hissələrindən biridir. Cəmiyyətdə mövcud olan sosial azadlığın bir forması olan siyasi azadlıq cəmiyyətin azadlığı ilə müəyyən olunur.

Hikmət Babaoğlu bir daha yazır: "Siyasi azadlıq xalq hakimiyyətinin həyata keçirilməsində, dövlətin və cəimiyyətin idarə olunmasında faktik sosial imkanların (azadlıqların) məcmusundan ibarətdir. Şəxsiyyətin siyasi hüquq və azadlıqları vəhdət təşkil etməklə cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir və onların reallaşması dərəcəsi cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimindən, siyasi mədəniyyəti və mənəvi həyatından, digər amillərdən asılıdır".

Azərbaycan Respublikası seçmək və seçilmək hüququ sahəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində islahatlar həyata keçirmişdir. Əli Həsənov göstərir: "2016-cı ildə konstitusiyaya əlavə və dəyişikliklər edildi:

* 23 maddəyə dəyişiklik, 6 maddə əlavə edildi;

* insan hüquq və azadlıqlarının qorunmasına təminat verən əsaslar təkmilləşdirildi;

* səmərəli və çevik dövlət idarəçiliyi mexanizmi formalaşdırıldı;

* icra hakimiyyəti və icra intizamı möhkəmləndirildi;

* iqtisadi idarəetmə mexanizmi təkmilləşdirildi;

* qanunvericilik hakimiyyətinin fəaliyyətilə bağlı yeni tələblər müəyyən edildi;

* dövlətin təhlükəsizliyinə, cəmiyyətin sabitliyinə əlavə təminat yaradıldı.

Bundan başqa konstitusiyada:

* Prezidentliyə namizədlər üçün yaş senzi (35 yaş) aradan qaldırıldı;

* Prezidentlik müddəti 7 il müəyyən edildi".

Əli Həsənov yazır: "Belə bir dəyişiklik xalqın idarəsi ilə seçilmiş dövlət başçısına qarşıya qoyduğu proqram və məqsədləri vaxt baxımından uğurla reallaşdırmaq imkanı verir, ikinci bir tərəfdən isə, ölkəni mütəmadi olaraq, seçkilər keçirmək yükündən azad edir. Hazırda dünyanın bir çox ölkəsində prezidentin səlahiyyət müddəti 6 və ya 7 il müəyyən olunmuşdur və bu da normal qarşılanır. Belə bir dəyişikliyi, həm də Azərbaycanın yerləşdiyi coğrafiyada cərəyan edən ziddiyyətli və mürəkkəb proseslər, eyni zamanda, qlobal təhdidlər diktə edir".

Eyni zamanda, konstitusiyaya 98-ci maddənin əlavə edilməsi nəzərdə tutuldu: "Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda onlara üzvlüyə namizədləri iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə, bu, konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır".

Əli Həsənov yazır: "Konstitusiyaya yeni 98-ci maddənin əlavə edilməsi parlamentin nəzəri cəhətdən iflic vəziyyətə düşməsinin mümkünlüyü ilə bağlıdır. Bu təhlükə tək parlament üçün yox, hər bir kollegial orqan üçün mümkündür. Belə olduğu halda, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin başçısı kimi, Azərbaycan dövlətinin normal fəaliyyətini təmin etməlidir.

Əli Həsənov yazır: "Konstitusiyanın 103-cü maddəsinə təklif edilən əlavəyə görə, Azərbaycanda vitse-prezidentlik institutunun yaradılması nəzərdə tutulur (3). Vitse-prezidentlik institutu çevik və səmərəli idarəçiliyin təmin edilməsi üçün əlverişli mexanizm kimi beynəlxalq təcrübədə də özünü doğrultmuşdur. Vitse-prezident vəzifələrinin təsis edilməsi Azərbaycanda prezident üsul-idarəsinin təkmilləşdirilməsini, onun müasir çağırışlara adekvatlığını, fors-major vəziyyətlərdə dövlət idarəçiliyi mexanizminin optimal funksionallığını təmin etmək məqsədindən irəli gəlir, iqtisadi islahatların dairəsinin genişləndirilməsinə və onların sürətləndirilməsinə xidmət edir. Həmçinin, yeni institutun formalaşdırılması, ilə Azərbaycan Prezidentinin səlahiyyətlərinin icra mexanizmi dəqiqləşir".

Qanunvericilik hakimiyyətinin fəaliyyəti ilə bağlı nəzərdə tutulan yeni tələblər insan hüquqlarının təminatına bərabər imkanlar yaradılması prinsipi əsasında yanaşmanı ehtiva edir. Məsələn, yaş senzinin aradan qaldırılması ilə seçkidə iştirak etmək hüququ olan şəxslərə həm də seçilmək hüququ verilir. Bundan başqa, yüksək dövlət postlarına təyinata və eləcə də, seçkili orqanlarda təmsilçiliyə yaş məhdudiyyəti aradan qaldırılır. Avropa Şurasının Venesiya Komissiyasının qənaətinə əsasən, yalnız spesifik yüksək vəzifələr üçün yaş tələbi müəyyən edilə bilər və bu tələbin 25 yaşdan aşağı olmaması tövsiyə olunur. Azərbaycan qanunvericiliyində yüksək vəzifələr üçün ali təhsil və s. tələblər nəzərdə tutulur və bu halda 18-20 yaşlarında olan vətəndaşların həmin vəzifələrə seçilmək və ya təyin olunmaq imkanları məhdudlaşır.

Əli Həsənov fikirlərinə yekun vuraraq yazır: "Bütün bunlar konstitusiyanın səmərəli fəaliyyət göstərən əsas hüquqi sənəd olması barədə fikri təsdiqləməyə imkan verir. Aydındır ki, ölkəmizdə hüquqi dövlət ideallarının tam bərqərar olunması üçün hələ çox iş görülməlidir. Həmçinin, nəzərə alınmalıdır ki, bu gün çoxəsrlik demokratiya təcrübəsinə malik, inkişaf etmiş dövlətlər də həmin dəyərləri əldə etmək üçün uzun və mürəkkəb inkişaf yolu keçmişlər. Bu mənada, konstitusiyanın işlək mexanizm kimi fəaliyyət göstərməsi üçün görülən işlər bundan sonra da səylə davam etdiriləlidir. Bu gün qarşıda duran əsas vəzifələrdən biri isə cəmiyyətin həyatını konstitusiyanın tələblərinə uyğun qurmaq və onun tətbiqini, xüsusilə də, ölkə ərazisində birbaşa hüquqi qüvvəsini təmin etməkdən ibarətdir. Bu məsələdə ölkədə hüquq qaydasının yaradılmasına məsul olan dövlət orqanları ilə yanaşı, vətəndaş cəmiyyəti və hər bir ölkə vətəndaşı da yaxından iştirak etməlidir. Çünki ölkə əhalisinin fəal dəstəyi olmadan konstitusiyanın daha səmərəli fəaliyyəti mümkün deyildir.

Müəllifin fikrincə, bu gün ölkəmizdə Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev dövlətçilik kursunu uğurla davam etdirir. Ölkədə cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən islahatlar aparılır və hakimiyyətin bütün qolları bu prosesdə fəal iştirak edir. Bütün bunlar, həmçinin, milli səviyyədə formalaşmış əlverişli ictimai, siyasi, hüquqi və iqtisadi mühit gənc Azərbaycan dövlətinin parlaq gələcəyinə olan inamı daha da artırır.

Bu gün, doğrudan da, hər bir azərbaycanlının fəxrlə öyünə biləcəyi ali qanunu - konstitusiyası var. Fikrimizcə, konstitusiyaya hörmət, ilk növbədə, onu öyrənməkdən, peşəsindən və fəaliyyət sahəsindən asılı olmayaraq, hər bir ölkə vətəndaşı tərəfindən gündəlik həyatda tətbiq etməkdən ibarətdir.

Konstitusiya müasir dövlətçiliyimizdə öz funksiyasını yerinə yetirərək, ictimai proseslərin siyasi-hüquqi kontekstdə tənzimlənməsini təmin edir. Azərbaycan Respublikasında, məhz ictimai-siyasi münasibətlərin qaydaya salınması, sosial-hüquqi sferada müvafiq islahatlar proqramının həyata keçirilməsi, konstitusion münasibətlərin sabit inkişaf dinamikası ölkədə uğurla irəli getməkdədir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

*Onun futbolçu karyerası anadan olduğu Şirvan şəhərində 1977-ci ildə başlayıb. Hələ uşaq yaşlarında Hafiz Hüseynovun rəhbərliyi ilə futbolda ilk adımlarını atıb. 1985-ci ildə Bakıxanov qəsəbəsində yerləşən idman təmayüllü internat məktəbinə daxil olub. 1986-cı ilə isə SSRİ-nin yeniyetmələrdən ibarət yığma komandasına cəlb olunub. Söhbət futbol üzrə Azərbaycan milli komandasının keçmiş üzvü, tanınmış futbol mütəxəssisi Tərlan Əhmədovdan gedir. O, 1987-ci ildə "Neftçi"yə dəvət edilib, 1989-cu ildə isə komandanın əsas heyətində çıxış etməyə başlayıb. Həmin dövrdə SSRİ çempionatının birinci dəstəsində yeniyetmə futbolçunun əsas heyətdə oynaması çox böyük uğur sayılırdı. T.Əhmədov 1990-cı ildə isə SSRİ yığmasının tərkibində Avropa çempionu olub. Futbolçu 1992-ci ildən "Termist" (Bakı), "Neftçi", "Turan", "Terek" (Rusiya), "Qarabağ", "Anji" (Rusiya), "Şəfa", "Fakel" (Rusiya), "İstiqlal" (İran), "Voln" (Ukrayna), "Karvan" və "Olimpik-Şüvəlan" kimi klublarda forma geyinib. O, 1992-2005-ci illərdə milli komandamızda 73 oyun keçirib.*



# Tanınmış futbolçu, əzmkar məşqçi

## Azərbaycanlı Avropa çempionu...

Karyerası ilə bağlı SİA-ya açıqlama verən mütəxəssis həm futbolçu, həm də məşqçi kimi ən iddialı klubların şərəfini qoruduğunu vurğulayıb: "Futbolçu kimi oynadığım klublarda hər dəfə finalın bir addımlığında Azərbaycan çempionluğu əlimizdən çıxırdı. Allah mənə futbolçu kimi ölkə çempionluğu deyil, Avropa çempionluğunu bəxş edib. Mən məşqçi kimi "Neftçi"də Böyükağa Hacıyevin köməkçisi işləyəndə biz artıq ölkə çempionu idik və 110 illik Azərbaycan futbol tarixində ilk dəfə Avroliqanın qrup mərhələsinə düşmüşdük. Futbolda bəxt amili daha böyük rol oynayır. Futbolçunun ən böyük iddiası ilk növbədə onun bəxtidir".

Məşqçiliyə "Xəzər Lənkəran"da başladığını bildirən mütəxəssis 2009-2010-cu illərdə bu komandada köməkçi işlədiyini, 2011-2013-cü illərdə "Neftçi"də fəaliyyət göstərdiyini vurğulayıb: "Ağasəlim Mircavadov "Xəzər Lənkəran"nın baş məşqçisi olandan sonra, mən onun köməkçisi təyin edildim. Bir il onunla çalışdıq. Amma müəyyən səbəblərə görə rəhbərliklə qarşılıqlı razılaşma əsasında komandadan ayrıldım. Bundan sonra 19 yaşlı futbolçulardan ibarət Azərbaycan yığmasında baş məşqçi Vəli Qasımovun köməkçisi təyin olundum. Yeddi aya yaxın onunla birlikdə işlədik. 2011-ci ildən "Neftçi"də Böyükağa Hacıyevin köməkçisi kimi çalışmağa başladım. İki il üç ay bu komandada işlədim. Son 3 ayda "Neftçi"də baş məşqçinin səlahiyyətlərini icra edirdim. 2014-cü ilin mart ayından isə AZAL futbol klubuna baş məşqçi təyin edildim. Həmin vaxtdan bu ilin may ayına qədər AZAL-da çalışmışam".

## AZAL-dakı çətin günlər

AZAL-ın baş məşqçi postunda Vaqif Sadıqovu əvəzləyən T.Əhmədov 10 oyunluq mübarizədən sonra komandanı Premyer Liqada saxlayıb. O, maliyyə çətinliyi səbəbindən heyətin idarə olunmasında böyük əziyyət çəksə də, komadanı bütün oyunlara yüksək səviyyədə hazırlayıb və AZAL daima əzmkar oyun göstərib: "Biz 10 oyuna 5 xal topladıq və 32 xalla yüksək liqada qaldıq. 2014/2015-ci il mövsümündə klub prezidenti ilə görüşəndə bütün məsuliyyətlərim müəyyənləşdi və göstəriləcək dəstək haqda söz verildi. 2015-ci ilin fevral ayına kimi həmin dəstək göstərildi. Ondan sonra isə komandada maliyyə böhranı yaşandı. Həmin ilin son 3 ayının əmək haqqını nə futbolçular, nə məşqçi heyəti, nə də rəhbərlik ala bilmədi. 2016/2017-ci il mövsümündə isə komandaya tamamilə fərqli büdcə ayrıldı. 2015/2016-cı il mövsümündə 150 min manat büdcə ayrılmışdısa, 2016/2017-ci il mövsümündə 144 min manat ayrıldı. Bu, öncəki ildən də aşağı məbləğ idi. İki ildə futbolçuları o komandaya dəvət etmək üçün klubun meneceri Eldəniz Yusifovla çox böyük əziyyətlər çəkmişik. Belə büdcəsi olan komandada hər futbolçu oynamaq istəmir. Biz o futbolçularda inam yaradaraq, dəstək olaraq onları heyətə cəlb etdik. 2015/2016-cı il mövsümündə Avroliqada oynamaq şansımız var idi. Aydın olmayan məsələlərdən o şansı əldən verdik. Daha sonra komandanın bəzi liderlərini heyətdən çıxartdılar. Bu da bəlkə də komandanın Premyer Liqadan çıxması üçün atılan addım idi. Son 2 ildəki maliyyə böhranı AZAL-ın yüksək liqanı tərk etməsinə aparırdı. Səkkiz komanda arasında bu büdcə ilə mübarizə aparmaq daha çətin idi. Komandanın 4 lideri maliyyə sıxıntısına görə heyəti tərk elədi. Oyunda geriləmə olsa da, biz yenə digər komandalardan taktiki və fiziki cəhətdən geri qalmadıq. Ancaq maliyyə problemi futbolçulara psixoloji zərbə vururdu. 2016/2017-ci il mövsümündə daha ağır şərtlər oldu. Futbolçularda özünəinamı artırmaq çox böyük problemə çevrilmişdi. Hakim səhvləri, psixoloji zərbələr, dəstəyin yüksək səviyyədə olmamasına görə komandanı sonuncu pillədən qurtara bilmədik. AZAL-da 2014/2015-ci il mövsümündəki heyət qalsaydı, son 2 ildə boşluqlara yeni futbolçular cəlb edərək çempionatda ilk üçlükdə yer ala bilərdik".




BAŞSAĞLIĞI

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev kollektiv adından iş yoldaşları Samir Feyruzova bacısı

**RAMİLƏ xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***


## Qardaşlıq müqaviləsi

Mütəxəssis bildirib ki, AZAL-ı ən çətin məqamlarda yarı yolda qoyub komandadan ayrılmayıb: "Mən ağır günün dostuyam. Klubun vitse-prezidenti Fikrət Hüseynovla gənclikdə birlikdə oynamışıq. 2014-cü ildə o məni komandaya dəvət edəndən biz F.Hüseynovla qardaşlıq müqaviləsi bağlamışdıq. Kağız üzərində rəsmi sənədlərdən başqa, bizim bir-birimizə qarşı böyük hörmətimiz və dostluq-qardaşlıq münasibətimiz var idi. Sonuncu dəfə o da əlacsız qaldı. Komanda I Diviziona düşdü. Orada büdcə tamamilə az olacaqdı. O özü bildirdi ki, belə az büdcə ilə daha ağır bir şəraitdə işləməyimi istəmir. F.Hüseynov mənim daha yaxşı kluba keçməyimi istədi. Beləliklə, mən AZAL-dan ayrıldım".



## "Çamadanımız həmişə yanımızdadır"

T.Əhmədov hazırda klublardan və ya AFFA-dan təkliflər gözlədiyini bildirib: "Futbol məşqçilərinin taleyi belədir. Bir müddət işlədikdən sonra bir dönəm işsizlik olur. Bizim çamadanımız həmişə yanımızdadır. Məşqçi, işləyən dövrdə də hər an istefaya göndərilə bilər. Artıq 3 il işləmişəmsə, bir müddət gözləmə mövqeyində olmalıyam. İndiyədək göstərdiyim iş göz önündədir. İstərdim ki, işimi davam etdirim, potensialımı daha çox göstərim, bacarığımı ortaya qoyum".

## "Həyatımı futbola bağlamışam"

O, futboldan kənar hansısa işdə çalışa bilməyəcəyini vurğulayıb: "Uşaqlıqdan həyatımı futbola bağlamışam. Mən kasıb ailədən çıxmışam. Atam Şirvan şəhərində avtobus sürücüsü olub. Bakıda heç bir qohumum olmayıb. Oradan gəlib, 5 il idman təmaüllü internat məktəbində oxuyub, göydə Allah, yerdə öz bacarığıma güvənib, həyatı davam etdirmişəm. Ömrümü bu işə vermişəm. Ona görə heç bir başqa sahə haqda fikirləşməmişəm. Futbolçu kimi lider olmuşam. Çalışıram ki, məşqçi işimdə də bunu gənc nəslə aşılaya bilim".

## "Futbolumuz inkişafdadır"

Mütəxəssis Azərbaycan futbolunun inkişafda olduğunu bildirib: "Ölkəmizdə idmana dövlət başçımız tərəfindən böyük diqqət və qayğı göstərilir. Futbolumuz da inkişafdadır. Premyer Liqada komandaların sayı az olsa da, keyfiyyət yüksəlib. "Neftçi", "Qarabağ" və "Qəbələ"nin Avroliqanın qrup mərhələsindəki çıxışları, milli komandamızın göstərdiyi böyük nəticələr inkişafın göstəricisidir". T.Əhmədov region komandalarına daha çox diqqət ayrılması və Premyer Liqada iştiraklarına şərait yaradılmasının önəmliliyini vurğulayıb.

Azərbaycan futbolunun Avropa səviyyəsinə çatması üçün nə etmək lazımdır?

O, Azərbaycanda futbolun daha da inkişafı və Avropa səviyyəsinə çatması üçün öncə uşaq futbolunu diqqətdə saxlamaq lazım olduğunu deyib: "4-5 yaşından uşaqları futbolla məşğul olmağa cəlb etmək lazımdır. Uşaq futbol məktəbləri çoxaldılmalı, orada savadlı və yüksək intellektual səviyyəyə malik mütəxəssislər fəaliyyət göstərməlidirlər. Müvafiq yaş qruplarına aid turnirlər keçirmək önəmlidir. Hər bir futbol klubunun özünün akademiyası olmalı, orada təhsillə futbol məşqləri birləşdirilməli, idman cəmiyyətləri daha çox yaradılmalı, klubları olmasa belə, uşaq futbol məktəbləri olmalı, futbol akademiyalarına bizim futbola yaxın olan ölkələrin yüksək səviyyəli mütəxəssisləri dəvət edilməlidir. Azərbaycanda çoxlu istedadlı, gələcəyi parlaq uşaqlar var. Onların potensiallarını açmaq üçün mütəxəssislər yetişdirilməlidir. Hər bir klubun infrastrukturu olmalıdır. Əsas komandanın taktiki sisteminə uyğun olaraq başqa yaş qrupları da eyni zamanda məşq etməlidirlər. Bunlarla yanaşı, təhsil, qidalanma, məşq prosesləri düzgün təşkil edilməlidir. Eyni zamanda nəzərə alsaq ki, futbol özündə intellektual bacarığı da birləşdirir, onda gənc nəslin ümumi təhsil səviyyəsinə də ciddi yanaşılmalıdır. Bu və digər amilləri yerinə yetirə bilsək, Azərbaycan futbolunun gələcəyi üçün yaxşı idmançılar yetişdirə biləcəyik".




*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**